# Xızı 3 Külək Elektrik Stansiyası Layihəsi
## Xızı rayonu
## Azərbaycan

Maraqlı Tərəflərlə

Qarşılıqlı Əlaqə Planı

(MTQƏP)

Sifarişçi:

May 2022, V4

# SƏNƏD HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| **LAYİHƏNİN ADI** | Xızı-3 Külək Elektrik Stansiyası Layihəsi, Xızı rayonu, Azərbaycan |
| **5Cs LAYİHƏ NÖMRƏSİ** | 1305/001/088 |
| **SƏNƏDİN ADI** | Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı (MTQƏP) |
| **SİFARİŞÇİ** | ACWA Power |
| **5Cs ŞİRKƏTİNİN LAYİHƏ MENECERİ** | Rim Cabr |
| **5Cs ŞİRKƏTİNİN LAYİHƏ DİREKTORU** | Ken Veyd |

# SƏNƏD DÖVRİYYƏSİNƏ NƏZARƏT

| VERSİYA | VERSİYA TARİXİ | TƏSVİRİ | MÜƏLLİF | YOXLAYAN ŞƏXS | TƏSDİQLƏYƏN ŞƏXS |
|---|---|---|---|---|---|
| 1.0 | 06/12/2021 | Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı (MTQƏP) | MKB | RMJ | KRW |
| 1.1 | 14/12/2021 | Düzəliş edilmiş Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı (MTQƏP) | MKB | KRW | KRW |
| 2.0 | 14/04/2022 | Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planının (MTQƏP) yekun versiyası | RMJ | KRW | KRW |
| 3.0 | 29/04/2022 | Açıqlanması üçün MTQƏP-in yekun versiyası | RMJ | KRW | KRW |
| 4.0 | 16/05/2022 | Açıqlanması üçün MTQƏP-in yekun versiyası – yenilənib | RMJ | KRW | KRW |

| | |
|---|---|
| 1 | Maliyyə kapitalı |
| 2 | Sosial kapital |
| 3 | Təbiət kapitalı |
| 4 | İstehsal edilmiş kapital |
| 5 | İnsan kapitalı |

Yerindən, icra üsulundan və ya funksiyasından asılı olmayaraq, bütün təşkilatlar öz məhsul və xidmətlərini uzun müddət təmin edə bilmək üçün *Dayanıqlı İnkişafın 5 Kapitalından* asılıdır.

"5 Capitals" şirkətinin bütün nailiyyətləri dayanıqlığa söykənir. Harada çalışmağımızdan asılı olmayaraq, müştərilərimizə bu kapital aktivlərinin ehtiyatlarını qorumaq və artırmaq üçün vasitələr təqdim etməyə çalışırıq.

5 Capitals Environmental and Management Consulting
Baş ofis: Poçt indeksi 119899 Şeyx Zayed prospekti, Dubay, BƏƏ
☎+971 4 343 5955 🖷+971 4 343 9366

# MƏSULİYYƏTDƏN İMTİNA BARƏDƏ BİLDİRİŞ

"5 Capitals" hər hansı digər tərəfin bu sənədə əsaslanması və ya bu sənədin hər hansı digər məqsədlə istifadə edilməsi ilə bağlı yaranan nəticələrə görə məsuliyyət daşımır.
Bu sənəddə məxfi məlumatlar və əqli mülkiyyətə əsaslanan məzmun var. Bu sənəd onu sifariş verən tərəfin razılığı olmadan digər tərəflərə göstərilməməlidir.

Bu sənəd onu sifariş edən tərəf üçün buraxılır və xüsusi olaraq yuxarıda müəyyənləşdirilmiş layihə ilə bağlı məqsədlər üçün hazırlanıb. Hər hansı digər tərəf bu sənədə əsaslanmamlı və ya bu sənəd hər hansı digər məqsəd üçün istifadə edilməməlidir

5 Capitals Environmental and Management Consulting
Baş ofis: Poçt indeksi 119899 Şeyx Zayed prospekti, Dubay, BƏƏ
☏+971 4 343 5955 🖶+971 4 343 9366

# MÜNDƏRİCAT


1 GİRİŞ 1

1.1 MTQƏP-in məqsədləri 1

1.2 Layihə barədə qısa məlumat 1

1.3 MTQƏP-in əhatə dairəsi 2

2 LAYİHƏNİN İCMALI 5

2.1 Layihənin əsasları 5

2.2 Layihənin yeri 5

2.3 Layihənin təsviri 6

2.4 Əlaqədar qurğular 7

2.5 Layihənin tikintisi və istismara buraxılması üzrə tələblər 7

2.6 Layihənin istismar tələbləri 8

2.7 Yerli ərazinin xüsusiyyətləri və həssaslıqlar 8

2.7.1 Torpaq sahəsindən istifadə və yerli şərait 9

3 NORMALAR VƏ TƏLƏBLƏR 16

3.1 Milli tələblər 16

3.2 Kreditorların tələbləri 17

3.2.1 AYİB 17

3.2.2 AİB 18

3.2.3 OFID 20

3.2.4 EPMİ-LƏR – BMK-NIN İCRA STANDARTLARI 21

4 MARAQLI TƏRƏFİN MÜƏYYƏNLƏDİRİLMƏSİ VƏ ANALİZİ 23

4.1 Maraqlı tərəfin müəyyənləşdirilməsi qaydası 23

4.1.1 Müəyyənləşdirilmiş maraqlı tərəflər 23

4.1.2 YVBP çərçivəsində maraqlı tərəflər ilə qarşılıqlı əlaqələr 26

5 MARAQLI TƏRƏFLƏR İLƏ QARŞILIQLI ƏLAQƏ / MƏSLƏHƏTLƏŞMƏLƏRİN APARILMASI 27

5.1 Məsləhətləşmələrdən qabaq görülmüş tədbirlər 27

5.2 İş həcminin müəyyənləşdirilməsi və ƏMSSTQ ərzində məsləhətləşmələr 27

5.2.1 İş həcminin müəyyənləşdirilməsi mərhələsi ərzində məsləhətləşmə 27

5.2.2 ƏMSSTQ üzrə tədqiqat ərzində məsləhətləşmə 29

5.3 Məlumatların ictimaiyyətə açıqlanması üçün keçirilən görüş 29
5.4 İCTİMAİ MƏLUMAT MƏRKƏZİ (İMM) 42
6 GƏLƏCƏKDƏ MARAQLI TƏRƏFLƏR İLƏ QARŞILIQLI ƏLAQƏ PROQRAMI 43
6.1 Qarşılıqlı əlaqə metodları 43
6.2 E və S sənədlərin açıqlanması 44
6.3 Cəzaların qarşısının alınması üçün görülən tədbirlər 46
6.4 Tikinti və istismara buraxılma ərzində maraqlı tərəf ilə qarşılıqlı əlaqə 47
6.5 İstismar ərzində maraqlı tərəf ilə qarşılıqlı əlaqə 50
7 ŞİKAYƏTLƏRƏ BAXILMASI MEXANİZMİ 52
7.1 Şikayətlərə baxılması mexanizminin əsas prinsipləri 52
7.2 Şikayətlərə baxılması mexanizminin tətbiq sahəsi 52
7.3 Şikayətlərə baxılması mexanizminin idarə olunmasının mərhələləri 53
7.3.1 Şikayətlərin idarə olunması prosedurlarının açıqlanması 53
7.3.2 Şikayət ərizəsinin verilməsi 54
7.3.3 Şikayətlərin nəzarətdə saxlanılması 54
7.3.4 Şikayətlərin nəzərdən keçirilməsi və tədqiq edilməsi 55
7.3.5 Şikayətin həll edilməsi variantları və şikayətə cavab 55
7.4 Tikinti və istismara buraxılma fazalarında şikayətlərə baxılması mexanizmi 56
7.4.1. İşçilərin şikayətlərinə baxılması (Daxildə) 57
7.4.2. Üçüncü tərəfin şikayətlərə baxılması mexanizmi 58
7.4.1 Monitorinq 58
7.5. İstismar fazası ərzində şikayətlərə baxılması mexanizmi 59
7.5 Qadınların, zəif və azətəminatlı qrupların şikayətlərinə baxılması proseduru 59
7.5.1 Gender əsaslı zorakılıq və qısnama (GƏZQ) halları barədə məlumat verilməsi 60
7.7. Şikayətə baxılması mexanizmi üzrə əlaqə məlumatları 60
7.8. Prosesin gedişi və qrafiki 61
7.9. Təlim 61
8. İCRA PLANI 63
8.4. Vəzifə və məsuliyyətlər (Layihə şirkəti) 63
8.4.1. SƏTƏM üzrə menecer 63
8.4.2. Ətraf mühit və sosial məsələlər üzrə menecer 63
8.4.3. İcma ilə əlaqələr üzrə məsul şəxs (Şikayətlər üzrə menecer) 64
8.5. Monitorinq və hesabat vermə 65

9. İCMAL 66

**ƏLAVƏ A** – ŞİKAYƏT FORMASININ NÜMUNƏSİ 67

**ƏLAVƏ B** – ŞİKAYƏTLƏRİN QEDYİYYAT FORMASI 68

**ƏLAVƏ C** – QHT-LƏRİN VƏ İCTİMAİ BİRLİKLƏRİN SİYAHISI 69

# QISALTMALARIN SİYAHISI

| QISALTMALAR | MƏNASI |
|---|---|
| AİB | Asiya İnkişaf Bankı |
| İSİ | İnşa et – Sahib ol – İstismar et |
| TESİP | Tikinti üzrə Ekoloji və Sosial İdarəetmə Planı |
| KYAQ | Kritik Yaşayış Arealı üzrə Qiymətləndirmə |
| AYİB | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| Ecoenergy | "Ecoenergy Ltd." |
| ƏMSƏT | Ətraf Mühit, Sağlamlıq və Əməyin Təhlükəsizliyi |
| ƏMTQ | Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi |
| EP | Ekvator Prinsipləri |
| MST | Mühəndis-layihələndirmə, Satınalma və Tikinti |
| EPMİ | Ekvator Prinsiplərini qəbul etmiş Maliyyə İnstitutları |
| ƏMSSTQ | Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi |
| ESİS | Ekoloji və Sosial İdarəetmə Sistemləri |
| HQM | Hədəf qrup ilə müzakirələr |
| GƏZQ | Gender əsaslı zorakılıq və qısnama |
| İXQ | İstixana qazı |
| BMK | Beynəlxalq Maliyyə Korporasiyası |
| YBƏA | Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi |
| ETSN | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| EN | Energetika Nazirliyi |
| MSMY | Milli səviyyədə müəyyən edilən yardımlar |
| NOMAC | National Operations and Maintenance Company Ltd. |
| OFID | Neft İxrac Edən Ölkələr Birliyinin Beynəlxalq İnkişaf Fondu |
| HEVX | Hava Elektrik Veriliş Xətləri |
| İTX | İstismar və Texniki Xidmət |
| İMM | İctimai Məlumat Mərkəzi |
| EESM | Elektrik Enerjisinin Satınalma Müqaviləsi |
| İGT-lər | İcra Göstəricisi üzrə Tələb |
| İS | İcra Standartları |
| CİZ | Cinsi istismar və zorakılıq |
| MTQƏP | Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı |
| 5 Capitals | "5 Capitals Environmental & Management Consultancy" konsaltinq şirkəti |

# 1 GİRİŞ

Hazırkı sənəd Sahə 1 Külək Elektrik Stansiyası layihəsi ("Layihə") ilə əlaqədar Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planıdır (MTQƏP). Hazırkı MTQƏP sənədində beynəlxalq kreditorların təlimatları və hər hansı tətbiq edilə bilən milli qanunlar xüsusi vurğulanmaqla, Layihənin istismar müddəti boyu maraqlı tərəflərlə qarşılıqlı əlaqələr üçün təklif olunan metodologiyanın əsasları təsvir edilir.

## 1.1 MTQƏP-in məqsədləri

MTQƏP-in məqsədlərinə aşağıdakılar daxildir:

- Layihənin təsirinə məruz qala və onun nəticəsinə təsir göstərə bilən əsas maraqlı tərəflərin təyin edilməsi;
- Təyin edilmiş maraqlı tərəfləri Layihə barədə məlumatdırma və maraqlı tərəflərin gözləntilərini idarə etmə proseslərinin müəyyən edilməsi;
- Müxtəlif maraqlı tərəflərdən ibarət qruplar ilə qarşılıqlı əlaqələrin tezliyinin və qrafikinin müəyyən edilməsi;
- Cari və yarana bilən məsələlərin başa düşülməsi və müvafiq maraqlı tərəflərin Layihə ilə əlaqədar fikirlərinin və iradlarının nəzərə alınması;
- Maraqlı tərəfin Gender əsaslı zorakılıq və qısnama (GƏZQ), o cümlədən, Cinsi istismar və zorakılıq (CİZ) ilə əlaqədar təsirlər və risklər də daxil olmaqla, ekoloji və sosial təsirin müəyyənləşdirilməsində, qarşısının alınmasında və azaldılmasında iştirakı üçün əsasın təmin edilməsi;
- Yuxarıda qeyd edilən təsirləri nəzərdən keçirmək məqsədi daşıyan mexanizmlər barədə rəy verilməsi üçün platformanın təklif edilməsi; və
- Layihə üçün icra ediləcək şikayətlərə baxılması mexanizminin müəyyənləşdirilməsi.

## 1.2 Layihə barədə qısa məlumat

"ACWA Power" şirkəti Azərbaycanda 240 MVt gücündə külək enerjisi layihəsinin işlənməsi, inşası və istismarı üçün Energetika Nazirliyi (EN) ilə icra sazişi imzalayıb. Külək enerjisi layihəsinin Elektrik Enerjisinin Satınalma Müqaviləsinə (EESM) uyğun olaraq "İnşa et-Sahib ol-İstismar et" (İSİ) modeli əsasında 25 il fəaliyyət göstərməsi gözlənilir. 240,5 MVt gücündə külək enerjisi layihəsi aşağıdakı qaydada iki (2) yerə bölünərək inşa ediləcək:

- Xızı 3: 162,5 MVt-dək gücdə olacaq və Xızı rayonunda yerləşən maksimum 25 külək turbinli generatordan (KTG) istifadə etməklə enerji generasiya edəcəkdir; və
- Sahə 1: 78 MVt-dək gücdə olacaq və Abşeron rayonunda yerləşən maksimum 12 KTG-dən istifadə etməklə enerji generasiya edəcəkdir.

**Təsvir 1-1 240 MVt gücündə külək elektrik stansiyalarının regional yerləşməsi**

Şərti işarələr
Külək turbinlərinin yerləşdiyi yerlər

Xızı 3 külək enerjisi layihəsi




“ACWA Power” şirkəti layihənin maliyyələşməsini təmin etmək məqsədilə beynəlxalq kreditorlardan, o cümlədən, özlərinin müəyyən Ekoloji və Sosial Siyasətləri və standartları/tələbləri olan Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) və Neft İxrac Edən Ölkələr Birliyinin Beynəlxalq İnkişaf Fondundan (OFID) vəsait cəlb etməyə çalışır. Qeyd: Ekvator Prinsiplərini qəbul etmiş Maliyyə İnstitutları kimi digər kreditorlar da maliyyələşdirməyə cəlb edilə bilər (təsdiqlənməmişdir). Buna görə, Layihə üzrə maraqlı tərəflərlə qarşılıqlı əlaqə prosesi milli normativlərə və müxtəlif Layihə kreditorlarının tələblərinə uyğunluğu təmin edə bilən standarta cavab verməlidir.

“ACWA Power” şirkəti Layihənin maliyyə cəhətlərinin yekunlaşdırılmasından qabaq ekologiya və sosial məsələlər üzrə konsultasiya xidmətləri üzrə iş həcminin, o cümlədən, Xızı-3 Külək Elektrik Stansiyası Layihəsi üçün hazırkı MTQƏP-nin işlənib hazırlanmasını “5 Capitals Environmental & Management Consultancy” şirkətinə (5 Capitals) tapşırmışdır.

## 1.3 MTQƏP-in əhatə dairəsi

MTQƏP-in əhatə dairəsinə gələcəkdə Layihənin tikinti. İstismara verilmə və istismar mərhələləri boyu maraqlı tərəflər ilə qarşılıqlı əlaqələrə şərait yaradılması və həmin əlaqələrin səmərəli idarə olunması metodları daxildir. Hazırkı sənəd Sahə 1 KES layihəsinə tətbiq edilir və aşağıdakı layihə komponentlərini əhatə edir:

- KTG platformaları (buraya bünövrə və kranın dayaq sahəsi daxildir);

- Yarımstansiya və hər hansı anbar təsərrüfatı obyektləri;
- Yeraltı kabellər üçün qazılmış kabellər; və
- Giriş yolları.

Hava elektrik veriliş xətləri (HEVX) Layihəni dövlət elektrik şəbəkəsinə birləşdirəcəkdir. HEVX-nin işlənməsi, tikintisi, istismara verilməsi və istismarına görə Layihədəki alıcı, yəni Azərenerji cavabdehlik daşıyacaq və bu işlər kreditorlarla bağlanan kredit sazişi çərçivəsində birbaşa maliyyələşdirilmir. Bina görə, MTQƏP-in əhatə dairəsinə HEVX daxil deyil. Alıcı tərəfindən HEVX ilə əlaqədar ayrıca ekoloji icazənin alınması üçün müraciət ediləcəyinə baxmayaraq, ƏMSSTQ üzrə tədqiqatın tərkibində HEVX üçün aparılmış ikin vəziyyətin tədqiqinin və qiymətləndirmənin nəticələri milli tələblərin əsasında yerinə yetirilməsi məqsədi ilə Azərenerjiyə təqdim ediləcəkdir.

Hazırkı MTQƏP Ekvator Prinsipi IV tələbləri əsasında BMK-nın İcra Göstəricisi Standartlarının tətbiq edilə bilən komponentlərindən, xüsusilə, maraqlı tərəflər ilə qarşılıqlı əlaqələrə və şikayətlərə baxılması mexanizminə dair tələbləri müəyyən edən EP5 və EP6 standartlarından əlavə AYİB, AİB və OFID kimi müəssisələrin mövcud tələblərinə uyğun olaraq hazırlanmışdır.

Layihənin həyata keçirildiyi müddət ərzində ‘yenilənən sənəd’ olaraq qüvvədə qalmaqda davam edəcəyindən, MTQƏP-dən Layihə üzrə şərait və ya maraqlı tərəfin dinamikası dəyişdikcə, Layihənin tikinti, istismara buraxılma və istismar mərhələsi üzrə ESİS-in daxilində yenilənməsi tələb ediləcək və Ekoloji və Sosial İdarəetmə Sisteminin (ESİS) davamlı olaraq təkmilləşdirilməsini təmin edəcək plan kimi istifadə ediləcəkdir.

MTQƏP fəsillərin aşağıdakı quruluşuna uyğunlaşdırılıb:

1. Giriş
    - MTQƏP-in məqsədləri
    - Layihə barədə qısa məlumat
    - MTQƏP-in əhatə dairəsi
2. Layihənin icmalı
    - Layihənin əsasları
    - Layihənin yerləşdiyi sahə
    - Layihənin təsviri
    - Əlaqədar qurğular
    - Layihənin quruluşu və istismara verilmə tələbləri
    - Layihənin istismarı ilə əlaqədar tələblər
    - Yerli kontekst və həssaslıqlar
3. Normalar və tələblər
    - Milli tələblər
    - Kreditorların tələbləri

4. Maraqlı tərəfin müəyyənləşdirilməsi və analizi
   - Maraqlı tərəfin müəyyənləşdirilməsinə yanaşma üsulu
5. Maraqlı tərəf ilə qarşılıqlı əlaqə / məsləhətləşmələrin aparılması
   - Məsləhətləşmələrdən qabaq görülmüş tədbirlər
   - İş həcminin müəyyənləşdirilməsi və ƏMSSTQ ərzində məsləhətləşmələr
   - ƏMSSTQ-in hazırlanması ərzində məsləhətləşmə üçün keçirilən görüşlər
   - İctimai Məlumat Mərkəzi (İMM)
6. Gələcəkdə maraqlı tərəflər ilə qarşılıqlı əlaqə proqramı
   - Qarşılıqlı əlaqələrin yaradılmasımetodları
   - E və S sənədlərinin açıqlanması
   - Şikayətə görə cəzanın qarşının alınması üçün görülən tədbirlər
   - Tİkinti və istismara verilmə ərzində maraqlı tərəf ilə qarşılıqlı əlaqə
   - İstismar ərzində maraqlı tərəf ilə qarşılıqlı əlaqə
7. Şikayətlərə baxılması mexanizmi
   - Şikayətlərə baxılması mexanizminin əsas prinsipləri
   - Şikayətlərə baxılması mexanizminin əhatə dairəsi
   - Şikayətlərə baxılması mexanizminin idarə olunmasının mərhələləri
   - Tikinti və istismara verilmə mərhələsində şikayətlərə baxılması mexanizmi
   - İstismar mərhələsində şikayətlərə baxılması mexanizmi
   - Şikayətlərə baxılması mexanizmi ilə əlaqədar əlaqə saxlanılacaq şəxslər barədə məlumat
   - Prosesin sxemi və qrafiki
   - Təlim
8. İcra planı
   - Vəzifə və məsuliyyətlər
   - Monitorinq və hesabat vermə
9. Yoxlama
10. Əlavələr

# 2 LAYİHƏNİN İCMALI

## 2.1 Layihənin əsasları

Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramının (2016-2020) məqsədi alternativ və bərpa olunan enerji mənbələrinin payını 20%-ə artırmaqdır. Proqramda külək enerjisi üstünlük verilən alternativ enerji kimi müəyyənləşdirilib və Beynəlxalq Enerji Agentliyinin (BEA) məlumatlarına əsasən külək enerjisinin hesablanmış illik gücü 800 MVt təşkil edir. Buna səbəb Azərbaycanda küləyin məhdudiyyətsiz mövcudluğu və bu texnologiyanın xərclərinin nisbətən aşağı olmasıdır (BEA, 2020). Buna görə, bu Layihə, Azərbaycanın Paris Sazişinin (IRENA, 2019) çərçivəsində Milli səviyyədə müəyyən edilən yardımına (MSMY) görə əsas il kimi götürülmüş 1990-cı ildən etibarən aparılmış ölçmələrin əsasında 2030-cu ilədək istixana qazı (İXQ) emissiyalarının azaldılması sahəsində götürmüş olduğu karbon öhdəliklərinin icrasına kömək edəcəkdir. Digər mənfəətlərə aşağıdakılar daxildir:

- Sosial mənfəətlər: Layihənin tikinti və istismar mərhələləri ərzində iş yeri imkanları yaradacağı gözlənilir;
- İqtisadi mənfəətlər: Son illərdə ÜDM-in artımının azalmasına və neftin qiymətlərinin əhəmiyyətli dərəcədə azaldığına görə ölkə iqtisadiyyatını şaxələndirməyi və bərpa olunan enerji layihələrinin daxil olduğu müasirləşdirilmiş enerji sistemi istiqamətində tədbirlər görməyi planlaşdırır. Presidentin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş Milli İqtisadi Perspektivlər üzrə Strateji Yol Xəritəsində nəzərdə tutulduğu kimi qeyri-neft sektoru üzrə birbaşa xarici sərmayənin (BXS) 2025-ci ilədək 1,5%-dən 4%-dək artırılması və ixracatın qeyri-neft sektoruna düşən payının 2016-cı ildə adambaşına 200 ABŞ dollarından 2025-ci ilədək 450 ABŞ dollarına və 2035-ci ilədək 1200 ABŞ dollarına qaldırılması nəzərdə tutulur. Belə şaxələndirmənin müəyyən hissəsinə Xızı-3 və Sahə 1 KES-lərin işlənməsi vasitəsi ilə nail olmaq nəzərdə tutulur; və
- Ekoloji mənfəətlər: KES-in istismarı ölkənin bol külək ehtiyatlarını cəlb edərək, Azərbaycanın iqtisadiyyatının azkarbonlu enerji sahəsinə keçməsi istiqamətində qabaqlayıcı tədbirdir. Azərbaycanın cari enerji sektorundakı digər enerji sitehsalı texnologiyaları ilə müqayisədə bu layihə ölkənin faydalı qazıntıların vasitəsi ilə istehsal edilən enerjidən asılılığını azaldacaq və atmosferin çirklənməsi hallarını aşağı salacaqdır.

## 2.2 Layihənin yeri

Layihə Bakı şəhərindən təxminən 55km şimal-qərbdə, Xızı rayonunun ərazisindəki təpəlik sahədə yerləşir. Təklif edilən Layihə sahəsi aşağıdakı təsvirdə təqdim edilir. Layihənin əhatə zonasına aşağıdakılar daxil olacaqdır:

- KTG platformaları (buraya bünövrə və kranın dayaq sahəsi daxildir);
- Yarımstansiya və hər hansı anbar obyektləri;
- Yeraltı kabellər üçün xəndəklər; və

- Giriş yolları.

**Təsvir 2-1 Layihənin yeri**




## 2.3 Layihənin təsviri

Nəzərdə tutulan Layihə hakim küləkləri ən səmərəli şəkildə tuta bilmək üçün təklif edilən sahə boyunca xüsusi düzülüş sxemi əsasında yerləşdirilən maksimum 25 KTG-dən ibarət olacaqdır.

Təklif edilən KTG Envision Energy EN-171/6.5 standartına əsaslanan külək turbin modelidir. '*EN-171/6.5 standartına əsaslanan KTG 6,5 MVt nominal gücə, 171m diametri olan rotora, üç (3) pərə, üfüqi oxa, küləkdöyən istiqamətə, dəyişən sürətə və mailliyə nəzarət imkanına malikdir* (Envision Energy Co., Ltd, n.d.)'.

Külək turbinləri küləyin enerjisini tutaraq, onu elektrik enerjisinə çevirir. Aşağıdakı təsvirdə göstərildiyi kimi KTG əsasən pərlərdən, çarx topundan, meyllləndirmə sistemindən, generator rotorundan, generator statorundan, istiqamətləndirmə (döndərici) sistemindən, külək ölçmə sistemindən, yağlama sistemindən, qondola dayağından və qüllədən ibarətdir (Goldwind Science & Technology Co. Ltd., 2021).

Külək turbinlərindən başqa Layihəyə həmçinin:

- Layihəni mövcud yol şəbəkəsi ilə birləşdirən giriş yolları; və
- Külək elektrik stansiyasının və yarımstansiyanın arasında yeraltı birləşdirici elekrik xətləri daxildir.

## 2.4 Əlaqədar qurğular

Hava elektrik veriliş xətləri (HEVX) Layihəni dövlət elektrik şəbəkəsinə birləşdirəcəkdir. HEVX-nin işlənməsinə görə Layihədəki alıcı, yəni, Azərenerji Açıq Səhmdar Cəmiyyəti ("Azərenerji") məsuliyyət daşıyacağına görə HEVX "Əlaqədar qurğu" hesab edilir və bu işlər kreditorlarla bağlanan kredit sazişi çərçivəsində birbaşa maliyyələşdirilməyəcəkdir.

## 2.5 Layihənin tikintisi və istismara buraxılması üzrə tələblər

MST üzrə podratçı tikintiyə və istismara buraxılmaya görə müqavilə əsasında məsuliyyət daşıyacaqdır. Layihə ərazisinin sərhədləri daxilində yerləşən bir (1) sahə müvəqqəti tikinti sahəsi hesab edilir. Hazırda bunun yarımstansiya sahəsinin yaxınlığındakı torpaq sahəsində həyata keçirilməsi planlaşdırılır. Bu sahə Layihənin tikinti mərhələsi ərzində Mühəndis-layihələndirmə, satınalma və tikinti (MST) üzrə podratçı, həmçinin, subpodratçılar tərəfindən tikinti materiallarının saxlanılması üçün tələb olunacaqdır.

**Təsvir 2-2 Tikinti sahəsinin, anbar sahənin və yarımstansiyanın yerləşdiyi yerlər**




Hazırkı mərhələdə pik tikinti mərhələləri ərzində külək elektrik stansiyasında təqribən 220 personalının olacağı başa düşülür. Bu personal Layihə şirkətinin, MST üzrə podratçının və subpodratçının işçi heyətinin kombinasiyasından ibarət olacaqdır. Layihə üçün işçilərin işə götürülməsi zamanı yerli vasitələrdən istifadə edilərək elan veriləcək və bacarıq səviyyələri üzrə tələblərə cavab verən yerli kadrlara üstünlük veriləcəkdir.

Hazırkı mərhələdə MST üzrə podratçının və subpodratçının işçiləri üçün yaşayış sahəsinin dəqiq yeri təsdiqlənməmişdir. Buna baxmayaraq, işçi heyətinin böyük əksəriyyətinin yerli icmadan cəlb edilməsi planlaşdırıldığından, bu işçilər üçün xüsusi yaşayış yerinin ayrılması tələb edilməyəcəkdir. Bununla belə, hər iki şəhərdə müvafiq obyektlər və infrastruktur mövcud olduğundan, (layihə sahəsindən o qədər də uzaqda yerləşməyən) Sumqayıtda və ya Bakıda digər yerli və əcnəbi işçilər üçün yaşayış sahələri inşa ediləcəkdir. ƏMSSTQ sənədində bütün işçilərin yaşayış yerləri/düşərgəsi üçün zəruri obyektlərin və standartların BMK/AYİB-in İşçilər üçün Yaşayış Obyektləri üzrə Proseslər və Standartlar (2009) sənədinə uyğun olacağı bildirilmişdir.

Fövqəladə hallarda yaşamaq üçün sahədə ərazinin hava şəraiti üçün münasib olan müvəqqəti yaşayış yeri inşa ediləcəkdir.

## 2.6 Layihənin istismar tələbləri

EESM-in müddəti Layihənin Kommersiya Əməliyyatları Tarixindən sonra 25 ildir və külək elektrik stansiyasının istismar və texniki xidmət fəaliyyətləri “ACWA Power” şirkətinə məxsus törəmə şirkət olan “The First National Operations and Maintenance Company” şirkəti (NOMAC) tərəfindən həyata keçiriləcəkdir.

Külək elektrik stansiyasının fəaliyyəti çox güman ki, məsafədən monitorinq ediləcək və idarə olunacaq və buna görə də, yalnız aşağıdakı məhdud sayda istismar fəaliyyətlərinin tələb olunacağı ehtimal edilir:

- İstismar və texniki xidmətə sistemin enerji hasilatını və istismar müddətini optimallaşdırmaq üçün avadanlığın adi gündəlik istismarı, o cümlədən, texniki xidməti (elektromexaniki və təmizlik) daxil olacaqdır;
- Küləyin sürəti həddindən artıq yüksək olduğu müddətlərdə məsafədən işə salınan turbinin söndürülməsi əməliyyatı;
- Yaz və payız mövsümlərində miqrasiya dövrlərində və yerli quş və yarasa növləri ilə bağlı əməliyyatların idarə edilməsi.

Hazırkı mərhələdə, belə başa düşülür ki, külək elektrik stansiyasının istismar və texniki xidmət fəaliyyətlərini həyata keçirmək üçün təxminən 10 nəfərlik işçi qüvvəsi cəlb ediləcəkdir.

İstismar zamanı xüsusi ayrılmış yaşayış sahənin olmayacağı və yaşayış sahəsi ilə əlaqədar tədbirlərin işçi heyətinin özü tərəfindən görüləcəyi gözlənilir.

## 2.7 Yerli ərazinin xüsusiyyətləri və həssaslıqlar

Layihə sahəsi bələdiyyəyə və dövlətə məxsusdur. Torpaq sahəsi Prezidentin 2020-ci il tarixli 2366 saylı Sərəncamı və Nazirlər Kabinetinin 2020-ci il tarixli 720 saylı Sərəncamı ilə Energetika Nazirliyinə icarəyə verilmişdir. Prezidentin və Nazirlər Kabinetinin sərəncamlarında hökumətə tapşırılır ki, dövlət mülkiyyətində olan torpaq sahələri Xızı-3 KES Layihəsinin də daxil olduğu 240,5 MVt-lıq Külək Enerjisi Layihələrinə icarəyə verilsin.

Xızı-3 KES layihə sahəsi baxımından Energetika Nazirliyi Layihə məqsədləri üçün Layihə Sahəsindən istifadə edilməsi, orada məskunlaşma və oraya giriş üçün bütün zəruri hüquqları Torpaq İcarə

Müqaviləsi (TİM) vasitəsilə Layihə Şirkətinə verəcək. Torpağın icarə müddəti Torpaq İcarə Müqaviləsinin imzalandığı və Azərbaycan Respublikasında notarial şəkildə təsdiqləndiyi tarixdən etibarən 30 il təşkil edəcəkdir.

Reseptorlar, yerli həssaslıqlar, torpaq istifadəçiləri və sahənin ilkin vəziyyəti barədə tam ətraflı məlumatlar Layihə üçün Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) üzrə hesabatda təsvir edilmişdir. Bu barədə məlumatların xülasəsi hazırkı MTQƏP sənədinin konteksti çərçivəsində aşağıda təqdim edilmişdir.

### 2.7.1 Torpaq sahəsindən istifadə və yerli şərait

**YERLİ ŞƏRAİT**

Sahə ucqar yerdə yerləşir və antropogen təsirlər/fəaliyyətlər olmayan təbii şəraitə malikdir. Sahəyə səfər zamanı müşahidə edilmiş əsas şərait xülasə şəkilində aşağıdakı kimi təsvir edilə bilər:

- Layihə sahəsi açıq ərazidir və hər hansı daimi tikililər mövcud deyil. Tikililərin əksəriyyəti ərazinin şimal tərəfindəki təpəliklərin yamacında yerləşir (sahədən kənar ərazidədir);
- Landşaftda yuvarlaq təpəliklər olan iri qeyri-düzən (dalğalı) ərazi mövcuddur. Torpaq sahəsi ətraf ərazilərə nisbətən yüksəkdədir və təpəlik ərazidə isə, relyef kəskin yamaclı deyil (yaylı tipli düzə dən deyil), lakin nisbətən daha tədrici qradiyentlə meyllənir;
- Torpaq sahəsinin səthi əsasən ot növləri ilə örtülüb. Yalnız işlənmə (layihə tikinti) sahəsi daxilində və ətrafında bir qrup ağac müşahidə edilib;
- Torpaq sahəsində fiziki infrastruktur demək olar ki, yox dərəcəsindədir. Avtomobil yolları, elektrik xətləri və ya digər kommunikasiya xətləri mövcud deyil. Torpaq sahəsində bəzi yerlərdə fermerlər növbəli su toplama məntəqələri (o cümlədən yağış suyunu toplama hovuzları) inşa ediblər;
- Külək turbini sahəsinin yaxınlığında qurumuş göl aşkar edilib.

Layihə sahəsini əks etdirən fotoşəkillər toplusu aşağıda təqdim edilir.

## Şəkil 2-1 Layihə sahəsinin vəziyyəti – Fotoşəkillər toplusu

| FOTOŞƏKİLLƏR | |
|---|---|
| Sahənin girişində sərt yamac (Noyabr 2019) | Sahənin relyefi (mart 2020) – Təpəliklər |
|  |  |
| Yamacların başında yaylaya bənzər ərazi (noyabr 2019) | |
|  |  |
| Sahədə alaçıq və əkin ərazisi (noyabr 2019) | Sahədə yağıntı suların toplandığı yer (noyabr 2019) |
|  |  |
| Sahədə tipik bitki örtüyü (noyabr 2019) | Sahədə müşahidə edilmiş az sayda ağac (noyabr 2019) |

## FOTOŞƏKİLLƏR





Quruyan göl







### TORPAQDAN İSTİFADƏ – LAYİHƏ SAHƏSİ

Layihə üçün aparılmış müsahibələrin, məsləhətləşmələrin və maldarlar arasında sorğunun nəticəsinə əsasən Xızı-3 KES Layihə sahəsində aşağıdakı torpaq istifadəçilərinin olması təsdiqlənmişdir:

- Qüvvədə olan icarə sazişi olmadan torpaq sahəsindən mövsümi istifadə edən ferma sahibləri - ətrafdakı fermaların torpağın icarəsi üçün bələdiyyə ilə bağladıqları müqavilələrin müddəti başa çatsa da, onların Layihə ərazinin sərhədləri çərçivəsində otarmasına icazə verilir; və
- Layihə sahəsindən müvafiq qaydada, ov və dərman bitkiləri məqsədi üçün istifadə edən ovçular (yuxarıda qeyd edilən fermerlərdən biri ovçuluq ilə məşğul olur) və bitkiləri toplayanlar kimi torpaq sahəsinin digər qeyri-rəsmi istifadəçiləri. Ovçuluqla örüş mövsümü ərzində fermerlərdən biri məşğul olduğu halda, bitkilərini toplanması mart ayından oktyabr ayınadək həyata keçirilir.
- Layihə sahəsindəki torpaq istifadəçilərinə dair məlumatların xülasəsi aşağıdakı cədvəldə təqdim edilir.

**Cədvəl 2-1** Layihə sahəsindəki torpaq istifadəçilərinə dair məlumatların xülasəsi

| TORPAQ İSTİFADƏÇİLƏRİNİN NÖVLƏRİ | TORPAQDAN İSTİFADƏ SAHƏSİ | TORPAQDAN İSTİFADƏNİN NÖVÜ | CİNSİ | ƏMLAKI | FERMA № |
|---|---|---|---|---|---|
| İcazə müqaviləsinin müddəti başa çatmış, torpaqdan mövsümi istifadə edən fermerlər | Layihə sahəsindən örüş kimi istifadə edilməsi | Qeyri-rəsmi | Kişi | 800 qoyun, 130 keçi və 50 inək | Ferma 1 |
| | | | Kişi | 600 qoyun, 50 keçi və 55 inək | Ferma 3 |
| | | | Kişi | 700 qoyun, 70 keçi, 40 inək və 3 uzunqulaq | Ferma 4 |
| | | | Male | 800 qoyun və 400 keçi | Ferma 6 |
| Ovçular və bitkiləri toplayanlar | Bitkilərin toplanması | Qeyri-rəsmi | Kişi | Thyme (Thymus hadzhievii), spinacia (*Spinacia oleracea*) və Adonis (*Adonis vernalis*), sahədən toplanan və Xızıda “dombalan” kimi tanınan göbələk. | M/D |
| | | | Kişi | | M/D |
| | | | Kişi | | M/D |
| | | | Kişi | | M/D |
| | | | Kişi | | M/D |
| | | | Kişi | | M/D |
| | Ovçuluq | | Kişi | Mal-qaranın otarılmasından əlavə bu fermer dovşaq və ördək də ovlayır. | Ferma 4 |

## Şəkil 2-2 Torpaqdan istifadə – Fotoşəkillər toplusu

| SAHƏNİN FOTOŞƏKİLLƏRİ | |
|---|---|
| Sahədə müşahidə edilmiş heyvanların otarılması (mart 2020) | Sahədə müşahidə edilmiş heyvanların otarılması (noyabr 2019) |
|  |  |

| SAHƏNİN FOTOŞƏKİLLƏRİ | |
|---|---|
| Layihə sahəsinin heyvanların örüşə çıxarılması (Fevral 2021) | İyul 2020-ci ildə yerli konsultant tərəfindən sahənin tədqiqi zamanı bitki topladığı müşahidə edilmiş şəxs |
|  |  |

## RESEPTORLAR

Aşağıdakı verilmiş torpaqlardan istifadəyə dair təsvirdə göstərildiyi kimi Layihə sahəsindən 15km məsafə daxilində iki kənd və iki qəsəbə olduğu müəyyən edilib. Bu iki kənd Layihə sahəsindən >8km şimali şərqdə yerləşən Sitalçay və Şurabad kəndləridir. Sitalçay kəndinin 1234 nəfər əhalisi var və orada hərbi hava bazası yerləşir. Bundan əlavə, Layihə sahəsindən şimali şərq tərəfdə təxminən 8km məsafədə hərbçilər üçün yaşayış məntəqəsi yerləşir.

Layihə hüdudlarının ətrafında (7km radius daxilində) 11 mövsümi təsərrüfatın (ferma) olduğu müəyyən edilib. İki (2) ferma tərk edilib. Bu fermalar qış aylarında (oktyabr-may) mövsümi təsərrüfat fəaliyyəti / heyvanların otarılması üçün istifadə edilir. İyun ayından sentyabr ayınadək mal-qara yay örüşü üçün Azərbaycanın şimal ərazilərinə köçürülür. Bundan əlavə, KTG K27-dən təxminən 3.1km cənub-şərqdə quşçuluq ferması yerləşir. Layihə çərçivəsində maldarlar arasında aparılmış sorğunun nəticələrinə əsasən ətrafdakı fermerlərin heç biri layihə sahəsindən mal-qara otarmaq üçün istifadə etmir. Torpaq istifadəçiləri barədə məlumat almaq üçün yuxarıdakı Cədvəl 2-1-ə baxmağınız xahiş olunur.

Müəyyən edilmiş torpaqdan istifadə/fəaliyyətlər aşağıdakı cədvəldə və təsvirdə təqdim edilir.

### Cədvəl 2-2 Torpaqdan istifadə

| SIRA | ADI | RESEPTOR | MƏSAFƏ | ƏN YAXIN KTG |
|---|---|---|---|---|
| 1 | HR-1 | Alaçıq və müvəqqəti sığınacaq (nadir hallarda istifadə edilir) | 487 | K11 |
| 2 | HR-2 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 2961 | K27 |
| 3 | HR-3 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 2389 | K27 |
| 4 | HR-4 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 2104 | K27 |
| 5 | HR-5 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 1991 | K27 |
| 6 | HR-6 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 950 | K25 |
| 7 | HR-7 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 1796 | K24 |
| 8 | HR-8 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 2291 | K15 |
| 9 | HR-9 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 2604 | K8 |
| 10 | HR-10 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 1567 | K5 |
| 11 | HR-11 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 6013 | K4 |

| | | | | |
|---|---|---|---|---|
| 12 | HR-12 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 7699 | K4 |
| 13 | HR-13 | Mövsümi ferma - Kənd təsərrüfatı təyinatlıdır | 9142 | K4 |
| 14 | HR-14 | Kənd təsərrüfatı sahəsidir | 2948 | K20 |
| 15 | HR-15 | Kənd təsərrüfatı sahəsidir | 3136 | K32(O) |
| 16 | HR-16 | Kənd təsərrüfatı sahəsidir | 1223 | K27 |
| 17 | HR-17 | Quşçuluq fermasıdır | 3329 | K27 |
| 18 | HR-18 | Kənd təsərrüfatı sahəsidir | 2259 | K27 |
| 19 | HR-19 | Yasma hərbi kompleksidir | 4995 | K27 |
| 20 | HR-20 | Kənd təsərrüfatı sahəsidir | 3124 | K27 |
| 21 | HR-21 | Yeni Yaşma külək elektrik parkıdır | 3821 | K27 |
| 22 | HR-22 | Kənd təsərrüfatı sahəsidir | 5637 | K27 |
| 23 | HR-23 | Yaşayış məntəqəsidir - Sitalçay qəsəbəsidir | 8483 | K22 |
| 24 | HR-24 | Hərbi hissədir | 7756 | K14 |
| 25 | HR-25 | Kənd təsərrüfatı sahəsidir | 7184 | K19 |
| 26 | HR-26 | Kiçik evlər qrupudur | 6931 | K14 |
| 27 | HR-27 | Kiçik evlər qrupudur | 3859 | K14 |
| 28 | HR-28 | Kiçik evlər qrupudur | 4201 | K13 |
| 29 | HR-29 | Kiçik evlər qrupudur | 4377 | K11 |
| 30 | HR-30 | Yaşayış məntəqəsidir - Şurabad kəndidir | 13756 | K27 |
| 31 | HR-31 | Sənaye təyinatlı külək turbinləridir (2 KTG) | 9077 | K27 |
| 32 | HR-32 | Sənaye təyinatlı külək turbinləridir (4 KTG) | 8425 | K27 |

**Təsvir 2-3 Torpaqdan istifadə / reseptorların xəritəsi**



# 3 NORMALAR VƏ TƏLƏBLƏR

## 3.1 Milli tələblər

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında ölkədə ekologiya, ətraf mühitin mühafizəsi və təbii sərvətlərin istifadəsi ilə bağlı fəaliyyətin tənzimlənməsindən məsul olan tənzimləyici orqan Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyidir (ETSN).

Azərbaycanda ətraf mühitin mühafizəsi üzrə hüquqi, iqtisadi və sosial baza 1999-cu il tarixli "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (No 678-IQ) və ona dəyişikliklər edən qanunlar (1032-IVQD, 932-IVQD, 590-VQD və 553-IVQD saylı qanunlar) ilə tənzimlənir.

Azərbaycan Konstitusiyasının III fəslində "Əsas İnsan və Vətəndaş Hüquqları və Azadlıqları" çərçivəsində insan hüquqlarına təminat verilir və bu fəsildə həmin hüquqların əsas prinsipləri sadalanır. Konstitusiyada qeyd edilir ki, "Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır."

Düzəliş olunmuş ƏMTQ qanununa (2018) əsasən ƏMTQ ilə bağlı tədqiqat planı işlənib hazırlandığı müddət ərzində ictimaiyyətlə dinləmələr formasında məsləhətləşmələr Azərbaycan Respublikasının "İctimaiyyətin İştirakı" haqqında qanununa uyğun olaraq aparılmalıdır. İştirakçıların sırasına 'nəzərdə tutulmuş iş sahəsində yaşayan şəxslər, həmin sahədə işləyən hüquqi şəxslər və eləcə də daşınmaz əmlakın mülkiyyətçisi daxil olmalıdır'. Bu qanunun 4.10-cu maddəsinə uyğun surətdə aparılan ictimai dinləmələrə dair yekun sənəd Azərbaycan Respublikasının 'Vətəndaşların Müraciətləri' haqqında qanununa uyğun olaraq nəzərdən keçirilməlidir.

Azərbaycan Respublikasının "İctimaiyyətin İştirakı" haqqında qanununa uyğun olaraq ictimaiyyətin iştirakının formaları aşağıdakı kimi həyata keçirilə bilər:

- İctimaiyyətlə məsləhətləşmə;
- İctimaiyyətlə müzakirə;
- İctimai dinləmə;
- İctimai rəyin öyrənilməsi;
- Hüquqi aktlar layihəsinin ictimaiyyətlə müzakirəsi;
- Yazılı konsultasiya;
- İnformasiyanın açıqlanması

## 3.2 Kreditorların tələbləri

### 3.2.1 AYİB

AYİB tərəfindən maliyyələşdirilən bütün layihələr elə tərtib olunmalıdır ki, layihələrin cavab verməsi tələb olunan ətraf mühitin və sosial sahənin dayanıqlığı üzrə əsas sahələr üçün on İcra Göstəricisi üzrə Tələbin (İGT) daxil olduğu AYİB-nın Ekoloji və Sosial Siyasətinin (2019), o cümlədən, AYİB-nın Məlumatların Açıqlanması və Maraqlı Tərəflərlə Qarşılıqlı Fəaliyyət haqqında 10-cu Prinsipinin (PR10) tələblərinə cavab versin. Bundan əlavə, müstəqil son vasitə olaraq, AYİB-in Layihə üzrə Müstəqil Cavabdehlik Mexanizmi (LMCM) Layihənin təsirinə məruz qalan insanların və mülki cəmiyyət təşkilatlarının Layihənin maraqlı tərəfləri arasında AYİB tərəfindən maliyyələşdirilən layihələr ilə əlaqədar qaldırılan sosial, ekoloji və ictimaiyyətə açıqlama ilə əlaqədar məsələlərin həllinə şərait yaratmaq və Bankın öz ESP sənədinə və onun informasiyadan istifadəyə dair siyasətin Layihə üçün səciyyəvi müddəalarına riayət edib-etmədiyini müəyyənləşdirmək və tətbiq edilə bilən hallarda, Bankın gələcəkdə tələblərə riayət etməməsinin qarşısını alaraq, bu siyasətlərə riayət edilməməsi ilə əlaqədar hər hansı mövcud məsələləri nəzərdən keçirmək məqsədi daşıyır.

AYİB-in ESP sənədində maraqlı tərəf ilə qarşılıqlı əlaqə aşağıdakı elementlərdən ibarət olan davamlı proses kimi müəyyənləşdirilir: (i) maraqlı tərəfin müəyyənləşdirilməsi və analiz olunması; (ii) maraqlı tərəflərlə qarşılıqlı fəaliyyətin planlaşdırılması; (iii) məlumatların açıqlanması; (iv) məsləhətləşmə və proseslərdə iştirak; (v) şikayətlərə baxılması mexanizmi; və (vi) müvafiq maraqlı tərəflərə məlumatların davamlı şəkildə verilməsi. Maraqlı tərəf ilə qarşılıqlı əlaqə prosesi layihənin planlaşdırılmasının ilkin mərhələsində başlaması və onun istismar dövrü boyu davam etdirilməlidir.

Məsləhətləşmə prosesinin mənalı və effektiv olmasını təmin etmək üçün maraqlı tərəf ilə qarşılıqlı əlaqə prosesinin başlıca komponenti cəlb olunmuş maraqlı tərəflərin diqqətmə müəyyənləşdirilməsindən, onları narahat edən məsələlərin, gözləntilərinin və üstünlük verdikləri variantların tədqiqindən ibarət olmalıdır. Sosial cəhətdən həssas maraqlı tərəflərin müəyyənləşdirilməsinə xüsusi diqqət yetirilməlidir. Qeyd edilən maraqlı tərəflər ilə qarşılıqlı əlaqə xüsusi diqqətlə planlaşdırılmalı və idarə edilməlidir.

Bundan əlavə, AYİB hər hansı maraqlı tərəfin şikayətlərinin yubanmadan və vaxtında qəbul edildiyinə, baxıldığına və effektiv şəkildə həll edildiyinə əmin olmaq üçün layihəni işləyib hazırlayan tərəfin şikayətlərə baxılması üçün effektiv mexanizmi müəyyənləşdirməsini və tətbiq etməsini tələb edir.

Hazırkı MTQƏP, bu tələblərə uyğun olaraq və ƏMSSTQ prosesinin rəsmiləşdirilmiş qaydada və müvafiq tərəflərin cəlb edilməsi yolu ilə aparılmasını tələb edərək, Layihənin ESP (2019) sənədinin əsasında "A" kateqoriyasına aid edildiyini nəzərə alaraq işlənib hazırlanmışdır.

AYİB PR10 prinsipində "Müvafiq Beynəlxalq Qaydaların (MBQ) və kroporativ vətəndaşlığın mühüm elementi kimi sifarişçinin, onun əməkdaşlarının, layihənin təsirinə birbaşa məruz qalan yerli icmaların və müvafiq hallarda, digər maraqlı tərəflərin arasında açıq və şəffaf qarşılıqlı fəaliyyətlərin əhəmiyyəti təsdiq edilir". Belə qarşılıqlı fəaliyyət aşağıdakı elementləri ehtiva etməlidir:

- Maraqlı tərəfin müəyyənləşdirilməsi və analiz olunması;
- Maraqlı tərəflərlə qarşılıqlı fəaliyyətin planlaşdırılması;

- Məlumatların açıqlanması;
- Məsləhətləşmə və proseslərdə iştirak;
- Şikayətlərə baxılması mexanizmi; və
- Müvafiq maraqlı tərəflərə məlumatların davamlı şəkildə verilməsi.

Həssas qruplar ilə əlaqədar PR10 prinsipində qeyd edilir ki, “Sifarişçi layihənin təsirinə məruz qalmış, xüsusi şəraitlərinə görə aztəminatlı və həssas ola bilən həmin tərəfləri (fərdləri və ya qrupları) müəyyənləşdirəcəkdir”. Bundan əlavə, sifarişçidən “aztəminatlı və həssas qruplar da daxil olmaqla, layihənin təsirinə məruz qalmış tərəflərə fəal dəstək verməsi və onlar ilə inklüziv qarşılıqlı fəaliyyəti təmin etməsi” tələb olunur.

<u>AYİB-nın PR10-u haqqında təlimat (COVID-19)</u>

Təlimatda COVID-19 pandemiyası ərzində məlumatların effektli şəkildə açıqlanmasını davam etdirmək və maraqlı tərəflərlə qarşılıqlı fəaliyyət göstərmək üçün mülahizələr verilir. Təlimatda e-mail kampaniyaları, Layihə informasiya vərəqələri, mətn əsaslı məlumatların verilməsi, ənənəvi media, lövhələr və s. vasitəsilə mümkün alternativ yanaşmalar göstərilir.

Aşağıdakı proseslər, sistemlər və alətlər (vasitələr) tövsiyə olunur:

- Maraqlı tərəfin məlumat bazası: Onun təzələnməsi və əsas əlaqə məlumatlarının verilməsi təmin olunmalıdır. Məlumat bazasının işlənib hazırlanması zamanı insanların məxfiliyinə hörmətlə yanaşılmalı və o, Ümumi Məlumatların Qorunması Qaydalarına uyğun olmalıdır;
- Məlumatların verilməsi: Müxtəlif qarşılıqlı fəaliyyət platformalarından istifadə olunan zaman verilən məlumatlar aydın, yığcam olmalı və müvafiq yerli dillərdə verilməlidir;
- Sənədləşdirmə: qarşılıqlı fəaliyyət işlərinin, öhdəliklər və şikayətlərin sənədləşdirilməsi yolu ilə qarşılıqlı fəaliyyətin izlənilməsi; və
- Resurslar: Qaldırıla bilən sualları, problemləri, mübahisələri və ya şikayətləri izləmək və cavablandırmaq üçün müvafiq resursların yerində olması təmin edilməlidir.

Qeyd: AYİB qeyd edir ki, təlimat uyğunluq sənədi deyil və məlumat və analiz mənbəyi kimi götürülməlidir

### 3.2.2 AİB

<u>AİB ehtiyac duyulan məsləhətləşmənin, iştirak prosesinin və maraqlı tərəflər ilə qarşılıqlı fəaliyyətin müddəti barədə məlumatın daxil olduğu Təlimat kitabçası və Fəaliyyət siyasətinin prinsipləri barədə bəyanat hazırlamışdır. Maliyyə vəsaitlərini almaq ehtimalı olan hallarda bankların sərmayə layihələrinin yerinə yetirməsi nəzərdə tutulan tələblər hər iki sənəddə göstərilmişdir.</u>

<u>Maraqlı tərəflər ilə qarşılıqlı əlaqələr</u>

AİB-in “Layihənin planlaşdırılması və icrasına hazırlıq: Bənd C – Məsləhətləşmə və İştirak” barədə Təlimat kitabçasında təsirə məruz qalmış şəxslər ilə hərtərəfli məsləhətləşmənin aparılması və

məsləhətləşmə proseslərinin ƏMTQ, İEM, köçürülmə planı və/və ya layihəyə tətbiq edilə bilən Yerli Xalqlar üzrə Planda (YXP) müvafiq qaydada sənədləşdirilməsi tələb olunur.

Təlimat kitabçasında həssas qrupların məsləhətləşmələrdə iştirak etməsi üçün kifayət qədər imkanların yaradılması tələb olunur.

AİB-in Ətraf mühit: Məsləhətləşmə və İştirak barədə 1-ci qoruyucu tələbində bildirilir ki, sifarişçi "təsirə məruz qalmış şəxslər və digər müvafiq tərəflər, o cümlədən, vətəndaş cəmiyyəti ilə hərtərəfli məsləhətləşmə" aparmalı və onların məlumatlandırılaraq iştirakına şərait yaratmalıdır. Hərətərli məsləhətləşmə (i) layihəyə hazırlıq mərhələsinin əvvəllərində başlayan və layihənin həyata keçirildiyi dövr ərzində davamlı olaraq həyata keçirilən; (ii) təsirə məruz qalmış şəxslərin başa düşə və rahat istifadə edə biləcəyi müvafiq və məqsədəuyğun informasiyanın vaxtında açıqlanmasını təmin edən; (iii) hədələməyə yol verilməyən və ya zor tətbiq edilməyən mühitdə həyata keçirilən; (iv) gender məsələlərini əks etdirən və gender problemlərinin nəzərə alındığı və aztəminatlı və həssas qrupların ehtiyaclarına uyğunlaşdırılmış; və (v) təsirə məruz qalmış şəxslərin və digər maraqlı tərəflərin bütün ümumi fikirlərinin layihənin planlaşdırılması, təsirazaltma tədbirləri, inkişaf faydalarının və imkanlarının bölüşdürülməsi və həyata keçirilməsi məsələləri kimi qərar qəbul etmə prosesində nəzərə alınmasına imkan yaradan prosesdir".

AİB-in Qeyri-Könüllü Köçürülmə: Məsləhətləşmə və İştirak barədə 2-ci qoruyucu tələbində həmçinin, yuxarıda AİB-in 1-ci qoruyucu tələbində qeyd edilən kimi sifarişçi tərəfindən hərtərəfli məsləhətləşmənin aparılması tələb olunur, lakin yerli icmalar ilə də məsləhətləşmənin aparılması və sifarişçinin aztəminatlı və həssas, ələlxüsus, yoxsulluq səviyyəsindən aşağıda yaşayan, torpaq sahibi olmayan, yaşlı, ailə başçısı qadın olan, qadın və uşaqlardan ibarət qrupların, yerli xalqların və torpaq sahəsi üzərində hüquqi səlahiyyəti olmayan şəxslərin ehtiyaclarına xüsusi diqqət ayırması nəzərdə tutulur.

AİB-in Yerli əhali: Məsləhətləşmə və İştirak barədə 3-cü qoruyucu tələbində tələb edilir ki, "borc alan tərəf/sifarişçi məlumatlandırılaraq (i) mənfi təsirlərin qarşısını almaq və ya qarşısının alınması mümkün olmazsa, belə təsirlərin minimum endirilməsi, yumşaldılması və kompensasiya edilməsi üçün tədbirlərin layihələndirilməsində, icrasında və nəzarətdə saxlanmasında və (ii) onlar üçün nəzərdə tutulmuş layihə mənfətlərinin mədəniyyət cəhətdən münasib qaydada tənzimlənməsində iştirak etməsini təmin etmək üçün təsirə məruz qalmış yerli xalqlar ilə hərtərəfli məsləhətləşmə aparsın".

AİB-in 2009-cu il üçün Qoruyucu Siyasət barədə Bəyanatında AİB tələb edir ki, "borc alan tərəflər/sifarişçilər informasiyanın açıqlanması, məsləhətləşmə, təsirə məruz qalmış icmaların üzləşdikləri risklər və təsirlər barədə müvafiq qaydada məlumatlandırılaraq iştirakının təmin edilməsi yolu ilə icmalar, qruplar və ya təklif edilmiş layihələrin təsirinə məruz qalmış şəxslər və vətəndaş cəmiyyəti ilə qarşılıqlı fəaliyyət göstərsin"

Şikayətə baxıması mexanizmi

AİB-in Qoruyucu Siyasət barədə Bəyanatına (2009) müvafiq olaraq, bank "təsirə məruz qalmış tərəflərin borc alan tərəfin/sifarişçinin layihə səviyyəsində sosial və ekoloji fəaliyyətləri ilə əlaqədar şikayətlərinin və narahatlıq doğuran məsələlərə dair müraciətlərinin qəbul edilməsi və həllinə şərait yaradılması üçün borc alan tərəfin/sifarişçinin şikayətlərə baxılması mexanizmini müəyyənləşdirməsini və təmin etməsini

tələb edir. Şikayətlərə baxılması mexanizmi layihənin risklərinin və təsirlərinin miqyasına uyğunlaşdırılmalıdır. Bu mexanizmdə gender problemlərinin nəzərə alındığı, mədəniyyət cəhətdən münasib olan və təsirə məruz qalmış şəxslərin bütün qrupları tərəfindən asanlıqla isifadə edilə bilən anlaqlı və şəffaf prosesdən istifadə edərək, təsirə məruz qalmış şəxsləri narahat edən məsələlər və onların şikayətləri yubanmadan nəzərdən keçirilməlidir”.

AİB-in 2-ci və 3-cü qoruyucu tələblərində:

- həssas qrupların məruz qaldıqları təsirlərə xüsusi diqqət yetirərək, təsirə məruz qalmış şəxslərin fiziki və iqtisadi sabitliyin pozulması və layihənin digər təsirləri barədə şikayətlərinin və narahatlıq doğuran məsələlərin (AİB-in Qeyri-Könüllü Köçürülmə barədə 2-ci qoruyucu tələbi); və
- yerli xalqların təsirə məruz qalmış icmalarını narahat edən məsələlərin, şikayətlərinin və müraciətlərinin (AİB-in Yerli əhali barədə 3-cü qoruyucu tələbi) həllinə nail olmaq və şərait yaratmaq üçün şikayət mexanizminin hazırlanması xüsusi olaraq tələb edilir.

### 3.2.3 OFID

OFID ətraf mühitə və sosial sahəyə dair xüsusi siyasətinin və ya digər standartının (bə ya normativ sənədinin) tələblərini ictimaiyyətə açıqlamır.

**EKVATOR PRİNSİPLƏRİ IV**

Ekvator Prinsiplərini qəbul etmiş Maliyyə İnstitutları (EPMİ) tərəfindən maliyyələşdirilmənin təmin edildiyi hallarda Ekvator Prinsipləri IV maraqlı tərəflər ilə qarşılıqlı əlaqələr üçün əsas tələbləri aşağıdakı prinsiplərin vasitəsi ilə müəyyən edir:

- Prinsip 5: Maraqlı tərəflər ilə qarşılıqlı əlaqələr
  - Bütün A və B kateqoriyalı layihələrdə EPMİ mütəşəkkil və mədəni cəhətdən münasib qaydada davamlı proses olaraq, müştərinin təsirə məruz qalmış icmalar, işçilər və müvafiq hallarda, digər maraqlı tərəflər ilə əlaqədar effektiv qarşılıqlı əlaqə nümayiş etdirməsini tələb edəcəkdir.
  - Təsirə məruz qalmış icmalara əhəmiyyətli mənfi təsir göstərəcəyi ehtimal olunan layihələrdə müştəri Məlumatlandırıcı Məsləhətləşmə və İştirak prosesini təşkil edəcəkdir. Müştəri özünün məsləhətləşmə prosesini Layihənin risklərinə və təsirlərinə, layihənin işlənmə fazasına, təsirə məruz qalmış icmaların üstünlük verdikləri dilə, onların qərar qəbul etmə proseslərinə və həssas və həssas qrupların ehtiyaclarına uyğunlaşdıracaqdır. Prosesdə xarici manipulyasiya, müdaxilə, zor və hədə olmamalıdır.
  - Qarşılıqlı əlaqələrə, əlelxüsus, yerli xalqlar ilə qarşılıqlı münasibətlər şərait yaradan digər tələblər də nəzərdə tutulur.
- Prinsip 6: Şikayətlərə baxılması mexanizmi
  - Bütün A və müvafiq qaydada, B kateqoriyalı layihələrdə EPMİ tələb edəcəkdir ki, müştəri, ESİS-in tərkib hissəsi kimi, layihənin ekoloji və sosial göstəriciləri ilə əlaqədar problemləri və şikayətləri qəbul etmək və onların həllinə şərait yaratmaq üçün müvafiq qaydada, təsirə məruz qalmış icmaların və işçilərin istifadəsi üçün layihələndirilmiş effektiv şikayətlərə baxılması mexanizmini müəyyən etsin.

- Şikayətlərə baxılması mexanizminin layihənin risklərinə və təsirlərinə uyğunlaşdırılması və mədəniyyət cəhətdən münasib olan, asanlıqla istifadə edilə bilən, xərc tələb etməyən və məsələni və ya problemi qaldırmış şəxsin təqib olunmasına yol verilməyən aydın və şəffaf məsləhətləşmə prosesindən istifadə edərək, problemlərin həlli yollarını yubanmadan araşdırması tələb edilir. Şikayətlərə baxılması mexanizmləri hüquqi və inzibati vasitələrdən istifadəyə mane olmamalıdır. Müştəri maraqlı tərəflər ilə qarşılıqlı əlaqələr prosesinin gedişində təsirə məruz qalmış icmaları və işçiləri şikayətlərə baxılması mexanizmləri barədə məlumatlandıracaqdır.

COVID-19 pandemiyası ərzində Ekvator prinsiplərinin tətbiqinə dair təlimat kitabçası

Təlimat kitabçasında borc alan tərəfin Layihə çərçivəsində COVID-19 pandemiyasına qarşı görülən tədbirlər, o cümlədən, işçi heyətinin icma ilə qarşılıqlı əlaqələrinə nəzarət edilməsi, prosedurlarda hər hansı lazımi dəyişikliklərin aparılması, Layihənin COVİD-19 risklərinə nəzarət prosesinə yanaşma üsulu və Layihə tərəfindən yerli icmaya təklif olunan dəstəyin hər hansı cəhətləri barədə məlumatların yerli icmalara təqdim olunması tövsiyə olunur. Buraya müvafiq maraqlı tərəflərin nəzərdən keçirilməsi və müəyyənləşdirilmiş hər hansı həssas qrupların diqqət mərkəzində saxlanılması daxildir. Təlimat kitabçasında qarşılıqlı əlaqələr üzrə aşağıdakı alternativ proseslərdən istifadə edilməsi tövsiyə olunur:

- Qadınlar, gənclər, rəhbərlər, yerli orqanlar, ağsaqqallar, və s. kimi yerli iştirakçıların vasitəsi ilə qarşıqlılqı əlaqə imkanlarının nəzərdən keçirilməsi; və
- Xüsusilə, Layihə təsirlərinin əhəmiyyətli olacağı yerlərdə və ən həssas qruplara əsas məlumatları effektiv şəkildə çatdıra biləcəyinə əmin olmaq üçün İcma ilə əlaqələr üzrə məsul şəxslər üçün əlavə təlimlərin keçirilməsi.

Qarşılıqlı əlaqələr zamanı COVID-19 pandemiyasının sosial zərərləri nəzərə alınmalı və anonimliyi təmin edən alternativ metodlar nəzərdən qaçırılmamalıdır.

### 3.2.4 EPMİ-LƏR – BMK-NIN İCRA STANDARTLARI

BMK-nın İcra Standartlarının hamısı maraqlı tərəflərlə məsləhətləşmə/ qarşılıqlı fəaliyyətin miqdarı ilə bağlı tələbləri ehtiva edir (ya ƏMTQ-də ya da gələcək ESİS-in bir hissəsi kimi) və buna görə də layihə müəyyən bir qarşılıqlı fəaliyyət səviyyəsi tələb edəcək. Xüsusən də BMK-nın “Sosial və Ekoloji Qiymətləndirmə və İdarəetmə Sistemləri” haqqında 1 saylı İcra Standartında maraqlı tərəflə qarşılıqlı fəaliyyət tələbləri daha ətraflı təsvir olunur. Orada aşağıdakılar qeyd olunur:

“*Maraqlı tərəflərlə qarşılıqlı fəaliyyət layihənin ekoloji və sosial təsirlərinin uğurla idarə olunması üçün mühüm əhəmiyyət kəsb edən güclü, konstruktiv və qənaətbəxş əlaqələrin qurulması üçün əsas təşkil edir. Maraqlı tərəflərlə qarşılıqlı fəaliyyət davam edən bir prosesdir və bu proses müxtəlif dərəcədə aşağıdakı elementləri ehtiva edə bilər:*

- Maraqlı tərəfin analiz olunması və planlaşdırılması;
- Məlumatların açıqlanması və yayılması;
- Məsləhətləşmə və iştirak;
- Şikayətlərə baxılması mexanizmi; və
- Təsirə məruz qalan icmalara məlumatların davamlı şəkildə verilməsi.

*Maraqlı tərəflə qarşılıqlı fəaliyyət cəhdinin xarakteri, tezliyi və səviyyəsi xeyli fərqli ola bilər və layihənin riskləri və mənfi təsirlərinə və layihənin inkişaf mərhələsinə uyğun olacaqdır.*"

BMK-nın icra standartlarında göstərilir ki, təsirə məruz qalmış icmalar layihə ilə əlaqədar müəyyən risklərə və mənfi təsirlərə məruz qaldıqda, sifarişçi/müştəri məsləhətləşmə prosesini elə aparmalıdır ki, təsirə məruz qalmış icmaların layihə riskləri, təsirlər və təsirazaltma tədbirləri barədə fikirlərini bildirməsi təmin edilsin və müştərinin həmin fikirləri nəzərdən keçirərək onlara cavab verməsinə imkan yaradılsın. Effektiv məsləhətləşmə:

- ekoloji və sosial risklərinvə təsirlərin müəyyənləşdirilməsi prosesinin əvvəlində başlayacaq və risklər və təsirlər yarandıqca, ardıcıl olaraq davam edəcək;
- mədəniyyət cəhətdən müvafiq yerli dil(lər)də və formatda tərtib edilmiş və təsirə məruz qalmış icmalar tərəfindən başa düşülən məqsədəuyğun, şəffaf, obyektiv, mənalı və asanlıqla əldə edilə bilən informasiyanın qabaqçadan açıqlanmasına və yayılmasına əsaslanacaq;
- birbaşa təsirə məruz qalmamış tərəflərdən fərqli olaraq birbaşa təsirə məruz qalmış tərəflər ilə inklüziv qarşılıqlı əlaqələri diqqət mərkəzində saxlayacaq;
- xarici manipulyasiyadan, müdaxilədən, zor və ya hədədən uzaq olacaq;
- tətbiq edilə bilən hallarda, səmərəli iştirak prosesinə şərait yaradacaq; və
- sənədləşdiriləcək ikiistiqamətli prosesdir.

# 4 MARAQLI TƏRƏFİN MÜƏYYƏNLƏDİRİLMƏSİ VƏ ANALİZİ

## 4.1 Maraqlı tərəfin müəyyənləşdirilməsi qaydası

Maraqlı tərəflərin müəyyənləşdirilməsi üçün sistemli yanaşma üsulundan istifadə edilmişdir. Müəyyənləşdirilmiş maraqlı tərəflər iki (2) kateqoriyaya təsnif edilmişdr:

- Təsirə məruz qalmış maraqlı tərəflər **(A)** – layihənin potensial təsirlərindən birinin və ya bir neçəsinin təsirinə məruz qala bilən tərəflərdir;

- Təsirə məruz qalmış maraqlı tərəflər birbaşa və ya dolayısı ilə Layihələrin ekoloji və sosial təsirlərinə məruz qala bilən fərdlər və ya qrup deməkdir. Layihənin reseptorlara (yəni, 2,5 yarımbölməsində təsvir edilən şəxslərə) göstərəcəyi ehtimal olunan ekoloji və sosial təsirlər ƏMSSTQ sənədində qiymətləndirilmişdir. Belə təsirlər layihənin maraqlı tərəflərinə birbaşa və ya dolayı təsir göstərə bilər.

- İştirakçı maraqlı tərəflər **(I)** – Layihə tərəfindən müəyyən edilən hər hansı prosedurlar, Layihənin benefisiarları, milli və beynəlxalq qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyətinin maraqlı üzvləri ilə əlaqəsi olan maraqlı tərəflərdir.

- İştirakçı maraqlı tərəflər Layihənin mənfi təsirinə məruz qalmasalar da, maraq göstərdiklərinə görə maraqlı tərəflər kimi müəyyənləşdirilən qruplar və ya təşkilatlardır. Bundan əlavə, "göstərdikləri marağın" analizi vasitəsi ilə müəyyənləşdirilə bilən, təsirə məruz qalmış sahədən kənarda maraqlı tərəflər də mövcuddur. Bunlar adətən, Layihə ilə əlaqədar sahəyə maraq göstərən hökumət orqanları, QHT-lər və milli, sosial və ekoloji sahələrdə fəaliyyət göstərən dövlət qurumları və ya həmin sahələrdəki icmalar ilə layihələri yerinə yetirən təşkilatlardır.

- Qərar qəbul edən maraqlı tərəflər **(D)** – layihənin işlənib hazırlanmasına və onun maliyyələşdirilməsinə cəlb olunmuş tərəflərdir. Bundan əlavə, ETSN kimi tənzimləyici orqan da buraya daxildir.

### 4.1.1 Müəyyənləşdirilmiş maraqlı tərəflər

Təsnifata əsasən (yuxarı baxın) müəyyənləşdirilmiş maraqlı tərəflər barədə məlumatlar aşağıdakı cədvəldə təqdim edilir. Sahədə sakinlərin yaşamaması və ya digər məlum torpaq sahəsindən istifadə barədə sazişlərin olmaması xüsusi olaraq qeyd edilir.

**Cədvəl 4-1 Layihə sahəsi ilə əlaqədar maraqlı tərəflər ilə qarşılıqlı əlaqələr cədvəli**

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) |
|---|---|---|
| **Torpaq istifadəçiləri** | Sahədən mövsümi istifadə edən ətrafdakı fermaların sahibləri | **A:** Dövlət orqanı və ya bələdiyyə (torpaq sahibləri) ilə hər hansı rəsmi razılaşma olmadan layihə sahəsindən mövsümi istifadə edən müəyyən maldarlar qrupu mövcuddur.<br>Bu maldarlar adətən oktyabr-may ayları arasındakı müddətdə layihə sahəsindən və ətrafdakı ərazilərdən mövsümi otlaq yerləri kimi istifadə edir. |

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) |
|---|---|---|
| | | Tikinti fəaliyyətinin mənfi təsirləri, müəyyən sahələrə girişin qarşısının alınması və birbaşa və dolayı təsirlərə məruz qalma |
| | | |
| | Layihə sahəsindən ov və ya bitkilərin toplanması kimi başqa məqsədlər üçün qeyri-rəsmi qaydada istifadə edə bilən ovçular və bitki toplayanlar kimi digər istifadəçilər. | **A: Bu dövlət orqanı və ya bələdiyyə (torpaq sahibləri) ilə hər hansı rəsmi razılaşma olmadan layihə sahəsindən istifadə edən müəyyən istifadəçi qruplardır.** |
| **Birbaşa təsirə məruz qalmış icmalar** | Sitalçay çayı yerli yaşayış məntəqəsi | **A:** Turbinlərə və Layihənin əhatə zonasına ən yaxın icmalardır. Buraya vizual görünüş, artan nəqliyyat (təhlükəsizlik məsələləri) ilə əlaqədar dolayı təsirlərə məruz qalma ehtimalı daxildir. |
| **Həssas qruplar** | Layihə sahəsində həssas qruplara işsiz gənclər, həssas ailələr və qadınlar, ailə başçısı qadın olan ailələr, ailə üzvləri arasında əlil olan şəxslər, məcburi köçkünlər, icmanın qadın və yaşlı üzvləri daxildir | **A:** Bu qruplar çeviklik, istifadə imkanı, Gender əsaslı zorakılıq və qısnama (GƏZQ), xəstəliklərin yayılması, əməyin istismari/iqtisadi istismar, və s. ilə əlaqədar Layihə təsirlərinə qeyri-mütənasib şəkildə məruz qala bilər. |
| **Yerli hökumət orqanları** | Sitalçay bələdiyyəsi | **D:** Layihə sahəsi bələdiyyənin yurisdiksiyasına daxildir |
| **Hökumət orqanları** | Xızır rayonunun icra hakimiyyətinin yerli nümayəndəsi | **D:** Torpaq sahəsinə sahibliyə və onun istifadəsinə nəzarət edən tənzimləyici orqanın tabeliyindədir |
| | Energetika Nazirliyi | **D: Layihənin işlənməsinə görə cavabdehdir** |
| | Mədəniyyət və Turizm Nazirliyi | **D: Mədəniyyət və arxeoloji sahələrə/obyektlərə dair məsələlərə nəzarət edən tənzimləyici roqandır.** |
| | Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu (AMEA AEİ) | **D: Milli tələblərə uyğun olaraq, Mədəniyyət Nazirliyi arxeoloji və mədəni irs sahələrində qazıntı işlərinin aparılmasına icazə verməzdən qabaq Akademiyanın razılığının olmasını tələb edir və onunla məsləhətləşir** |
| | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | **D: Qoruqlar, ekoloji cəhətdən həssas və ətraf mühit ilə əlaqədar məsələlərə nəzarət edən tənzimləyici orqandır.** |
| | Azərbaycan Respublikasının Nəqliyyat, Kommunikasiya və Yüksək Texnologiyalar Nazirliyi | **D: Azərbaycanda nəqliyyat ilə əlaqədar məsələlərə nəzarət edən tənzimləyici orqandır** |
| **Sənaye müəssisələri** | Quşçuluq ferması | **I:** Layihə sahəsinə ən yaxın sənaye müssisəsidir |
| | Yeni Yaşma külək elektrik stansiyası (Azərişıq – Operator) | **I: Mövcud külək elektrik stansiyasıdır** |
| **Dövlət təşkilatları** | Azerenerji | D: Alıcıdır və Layihə üçün tələb olunan HEVX-in işlənməsinə görə cavabdehdir |
| | Azərbaycan Respublikasının Nəqliyyat, Kommunikasiya və Yüksək Texnologiyalar Nazirliyi, Aztelekom MMC | **D: Layihə sahəsindən cənub-şərqdə telekommunikasiya qülləsi mövcuddur** |
| | Milli Teleradio Şurası | **D: Layihə sahəsində telekommunikasiya sistemləri barədə məlumat almaq üçün** |

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) |
|---|---|---|
| | | **müraciət edir və hər hansı xüsusi tələblər barədə rəy alır** |
| | Minatəmizləmə Agentliyi | **D: Zonaların təhlükəsizliyini təmin edir və partlamamış sursatları layihə sahələrindən təmizləyir** |
| | Azərbaycan Respublikasının Nəqliyyat, Kommunikasiya və Yüksək Texnologiyalar Nazirliyi, Dövlət Mülki Aviasiya Agentliyi | **D: Rəy alır və layihə sahələrinin təmizlənməsini həyata keçirir.** |
| | Müdafi nazirinin müavini –Hərbi Hava Qüvvələrinin komandanı | **D: Rəy alır və layihə sahələrinin təmizlənməsini həyata keçirir.** |
| | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | **D: Abşeron rayonunun su məsələləri üzrə səlahiyyətli orqanıdır** |
| | AZƏRSU Açıq Səhmdar Cəmiyyəti | **D: Su təchizatı və çirkab sularının idarə olunması üzrə səlahiyyətli qurumdur** |
| | Xızı Sukanal İdarəsi | **D: Xızı rayonunun Sukanal İdarəsidir** |
| | Xızı rayon icra hakimiyyəti | **D: Xızı rayonunda tullantıların idarə olunması üzrə səlahiyyətli qurumdur** |
| **Maliyyə institutları** | AYİB/YBƏA/OPIC<br>(və digər mümkün təşkilatlar) | **D:** Layihə üçün maliyyə vəsaitini təmin edir |
| **QHT-lər** | ETSN-nin QHT-lərə Dövlət Dəstəyi Şurası | **I:** Layihənin icrası və onun ətraf mühitə təsirləri və nəzərdə tutulan təsirazaltma tədbirləri ilə maraqlanır. |
| | Ekoloji Qruplar (məlumatın ictimaiyyətə açıqlanması prosesinə cəlb edilən QHT-lərin siyahısı üçün Əlavə C-yə istinad etməyiniz xahiş olunur) | **I: Layihənin ətraf mühitə təsirləri ilə maraqlana bilərlər.** |
| **Beynəlxalq təşkilatlar** | Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyinin (IUCN) mütəxəssislər və ekspertlər qrupu | **I:** IUCN birliyinin layihə rayonundakı növlər və onların mühafizəsinin əhəmiyyəti ilə əlaqədar məlumat bazası mövcuddur. |
| | “Bird Life International” | **I: Layihənin arnitorfauna ilə əlaqədar təsirləri ilə maraqlana bilər.** |
| **Tədqiqatçılar və mütəxəssislər** | Rob Sheldon: Ornitoloq | **I:** Eksperlərin layihə sahəsi rayonu üzrə təcrübəsi vardır və əvvəllər həmin rayonda aparılmış ornitoloji tədqiqatlarda və araşdırmalarda iştrak etmişdir. |
| **Kütləvi informasiya vasitələri** | **Regionun və yerli kütləvi informasiya vasitələri (dəqiq müəyyənləşdirilməmişdir)** | **I:** Layihə barədə reportajın hazırlanmasına və məlumatların yayılmasına maraq göstərəcəkləri ehtimal olunur. |
| İşçilər və işçilərin təşkilatları | **Layihənin işçiləri və əməkdaşları** | **I:** Tikinti. **İstismara verilmə, həmçinin. istismar və texniki xidmət personalının şikayətləri** |

### 4.1.2 YVBP çərçivəsində maraqlı tərəflər ilə qarşılıqlı əlaqələr

YVBP çərçivəsində qarşılıqlı əlaqə yaradılacaq maraqlı tərəflərin siyahısı aşağıda təqdim edilir.

**Cədvəl 4-2 YVBP-nin icrası ərzində qarşılıqlı əlaqə yaradılacaq maraqlı tərəflər**

| MARAQLI TƏRƏFLƏRİN QRUPU | MARAQLI TƏRƏFLƏR | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) |
|---|---|---|
| **Torpaq istifadəçiləri** | Sahədən istifadə edən fermerlər | **A:** Otlaq sahəsinin itirilməsinə görə (iqtisadi sabitliyin pozulması) birbaşa təsir və torpaqdan istifadənin məhdudlaşdırılması. |
| | Bitki toplayanlar | |
| **İşçilər** | Fermerlərin daimi və müvəqqəti işçiləri | **A:** Layihənin tikinti mərhələsi ərzində otarma fəaliyyətləri üçün maneə yaranacağı ehtimal edilir |
| **Yerli dövlət orqanları** | Sitalçay bələdiyyəsi | **D:** Layihə sahəsi bələdiyyənin və dövlətin yurisdiksiyasında yerləşir |
| **Hökumət orqanı** | Xızı rayonu icra hakimiyyətinin yerli nümayəndəsi | **D:** Torpaq üzərində sahiblik hüququna və torpaqdan istifadəyə nəzarət edən tənzimləyici orqanın tərkibindədir |
| **Dövlət Torpaq Agentliyi** | Xızır rayonunun Dövlət Torpaq Agentliyi | **D:** Torpaq üzərində sahiblik hüququ və torpaq istifadəçiləriilə əlaqədar tədqiqat |
| **Maliyyə institutları** | AYİB/AİB/ OFID | **D**: Layihə üçün maliyyə vəsaitlərinin təmin edilməsi |

# 5 MARAQLI TƏRƏFLƏR İLƏ QARŞILIQLI ƏLAQƏ / MƏSLƏHƏTLƏŞMƏLƏRİN APARILMASI

ƏMSSTQ sənədinin Maraqlı tərəflər ilə qarşılıqlı əlaqələr və məsləhətləşmə barədə 17-ci bölməsində ƏMSSTQ prosesinin tərkib hissəsi kimi aparılmış məsləhətləşmələr və qarşılıqlı əlaqələr ətraflı təsvir edilir. Onların xülasəsi aşağıda təqdim edilir.

## 5.1 Məsləhətləşmələrdən qabaq görülmüş tədbirlər

İctimaiyyətin cəlb olunması və məlumatların açıqlanması ərzində aşağıdakı məsələlər nəzərə alınmışdır:

- COVID 19 üzrə sosial məhdudiyyətlər və ara məsafəsinin saxlanması tələbləri;
- Məlumatların məxfiliyi və məsləhətləşmələrdə iştiraka razılıq verilməsi;
- Görüşlərin başlanğıcında icma üzvləri əks tədbirlərin görülməsindən qorxmayaraq fikirlərini bildirməyə təşviq edilmişdir. Qeyd edilməlidir ki, ƏMSSTQ prosesi ərzində yerli icma ilə cəlb edilmiş müxtəlif maraqlı tərəflərin arasında gərginlik olmamışdır. Məlumatların ictimaiyyətə açıqlanması məqsədi ilə 2022-ci ilin yanvarında keçirilmiş görüşlər də daxil olmaqla, yerli icma ilə aparılmış hər hansı məsləhətləşmələr zamanı bu qeydə alınmamış və ya bu barədə məsələ qaldırılmamışdır;
- İştirakçılar məsləhətləşmənin məqsədi, məlumatların istifadə qaydası barədə məlumatlandırılmış və onlara adlarını açıqlayıb-açıqlamamaq seçimi verilmişdir; və
- Maraqlı tərəflər kənddə yaradılmış İMM və ƏMSSTQ və məsləhətləşmə prosesi ərzində hər hansı şikayətlər, müraciətlər və qeyri-etik davranış halları barədə məlumat vermək məqsədi ilə layihə müəyyənləşdirilmiş şikayətlərə baxılması mexanizmi barədə məlumatlandırılmışdır.

## 5.2 İş həcminin müəyyənləşdirilməsi və ƏMSSTQ ərzində məsləhətləşmələr

Layihə üzrə maraqlı tərəfin müəyyənləşdirilməsi Layihənin iş həcminin müəyyənləşdirilməsi mərhələsi ərzində başlamışdır. Milli ƏMTQ və ya ƏMSSTQ proseslərinin tərkib hissəsi kimi iş həcminin müəyyənləşdirilməsi mərhələsi ərzində maraqlı tərəflər və ictimaiyyət ilə məsləhətləşmələr aparılmışdır. Maraqlı tərəflər ilə cari qarşılıqlı əlaqələr prosesində tətbiq edilən metodlara milli, regional, yerli orqanlar ilə poçt vasitəsi ilə yazışmaların aparılması, üzbəüz və virtual görüşlərin keçirilməsi, elektron yazışmaların aparılması və telefon ilə əlaqələrin yaradılması daxildir.

### 5.2.1 İş həcminin müəyyənləşdirilməsi mərhələsi ərzində məsləhətləşmə

İş həcminin müəyyənləşdirilməsi ərzində qarşılıqlı əlaqə aşağıdakı tərəflər ilə aparılmışdır:

- Şitalçay kəndinin yerli icması;
- Ekologiya və Təbii Sərvətlər Nazirliyi (Azərbaycanda ekoloji məsələlər üzrə tənzimləyici orqan) – virtual görüş;
- Energetika Nazirliyi (EN);
- ETSN-nin nəzdində yaradılmış QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvləri; və
- Şitalçay bələdiyyəsi.

Yuxarıda adı çəkilən maraqlı tərəflər ilə qarşılıqlı əlaqələrin / məsləhətləşmələrin xülasəsi aşağıda təqdim edilir.

- Yerli icma:
  - İş həcminin müəyyənləşdrilməsi üçün yerli icma iclaslar: 25 iyun 2020-ci il tarixində Şitalçay kəndinin icma üzvləri ilə məsləhətləşmə üçün görüş keçirilmiş, ümumilikdə, 10 nəfər icma üzvü iştirak etmişdir (COVID pandemiyası ilə əlaqədar məhdudiyyətlərə görə yol verilən insanların maksimum sayı); və
  - İş həcminin müəyyənləşdirilməsi mərhələsi ərzində məsləhətləşmə prosesinin tərkib hissəsi kimi 2020-ci ilin may ayında Layihə barədə məlumat verilən məktublar göndərilmiş, o cümlədən, yerli icmanın rəy və suallarını almaq üçün yerli məsləhətçi ilə əlaqə saxlamaq üçün məlumatlar Şitalçay kəndində (evlərdə və supermarketlərdə) və bələdiyyənin elanlar şöbəsində paylanmışdır.
  - Şitalçay bələdiyyəsi: Şitalçay kəndinin bələdiyyə şurasının sədrliyi və yerli konsultantın iştirakı ilə 12 may 2020-ci il tarixində məsləhətləşmə üçün görüş keçirilmişdir. Görüşün məqsədi layihəni, külək elektrik stansiyası layihəsi üçün ƏMSSTQ çərçivəsində ətraf mühitin ilkin vəziyyətinin tədqiqi və kənd üzrə toplanmış sosial-iqtisadi məlumatları və ƏMSSTQ üzrə tədqiqat ərzində konsultant tərəfindən həyata keçiriləcək fəaliyyətləri təqdim etməkdən ibarət olmuşdur.
  - ETSN: Azərbaycan ekologiya sahəsində tənzimləyici orqan olan ETSN iş həcminin müəyyənləşdirilməsinə dair hesabatın təqdim olunmasını tələb etmir və iş həcmi görüş formasında keçirilən tədbirdə müəyyənləşdirilə bilər. Buna görə, layihənin və ƏMSSTQ üzrə tədqiqatın əhatə dairəsi barədə məlumat vermək məqsədi ilə 8 sentyabr 2021-ci il tarixində ETSN-nin Dövlət Ekoloji Ekspertiza Agentliyi ilə onlayn görüş keçirilmişdir.
  - EN: ƏMSSTQ üzrə tədqiqatı müzakirə etmək üçün 29 iyun 2021-ci il tarixində EN ilə virtual görüş keçirilmişdir. Ümumiyyətlə, görüşdə doqquz nəfər iştirak etmişdir. Layihə, onun yerləşdiyi sahə, məqsədi, tələbləri barədə məlumat vermək üçün “power point” formatda təqdimat keçirilmiş və ƏMSSTQ çərçivəsində həyata keçirilmiş fəaliyyətlərə dair izahat verilmişdir.

  - QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvləri: Layihənin və ƏMSSTQ üzrə tədqiqatın nəticələrinin təqdim edilməsi məqsədi ilə 16 may 2020-ci il tarixində ETSN-nin nəzdində yaradılmış QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvləri ilə görüş keçirilmişdir. Görüşdə QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri, Azərbaycan Skautlar Assossiasiyasının rəhbəri, Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri. İrəli İctimai Birliyinin üzvü və icma şurasının digər üzvləri iştirak etmişdir. Layihə və ƏMSSTQ üzrə tədqiqatın əhatə dairəsi barədə məlumat iştirakçılara təqdim olunmuşdur.

### 5.2.2 ƏMSSTQ üzrə tədqiqat ərzində məsləhətləşmə

- Xüsusi Müzakirə Qrupunun (XMQ) Şitalçay kəndinin sakinləri ilə görüşləri
- Layihə sahəsindən mövsümi otlaq üçün istifadə edən maldarlar ilə məsləhətləşmə:
  - Ətrafdakı fermalar / maldarlar: Layihə sahəsindən bəzi hallarda otlaq kimi istifadə edən yaxınlıqdakı fermerler / maldarlar ilə 2021-ci ilin fevral və mart aylarında müsahibələr keçirilmiş / məsləhətləşmələr aparılmışdır;
  - 2020-ci ilin oktyabrında və 2021-ci ilin noyabrında sahədə tədqiqat işi ərzində köçəri maldarlar ilə qeyri-rəsmi müsahibələr aparılmışdır; və
  - Otlaq mövsümü ərzində və mövsümi maldarların qayıdığı zaman 2021-ci ilin noyabrında maldarlar arasında tədqiqat aparılmışdır.
- Təsirə məruz qala bilən şəxslər (TMQBŞ) ilə məsləhətləşmələr. Yaşayış Vasitələrinin Bərpası Planı (YVBP) çərçivəsində fermerlər və TMQBŞ ilə məsləhətləşmələr aparılmışdır:
  - 2022-ci ilin 12 və 16 mart tarixlərində bələdiyyə və TMQBŞ-lər ilə məsləhətləşmə aparılmış və sosial-iqtisadi tədqiqatlar aparılmışdır.

- Bunlardan əlavə, 12 yanvar 2022-ci il tarixində aşağıdakı şəxslərin iştirakı ilə ETSN ilə görüş keçirilmişdir:
  - Dövlət Ekoloji Ekspertiza Agentliyinin idarə heyətinin sədrinin müavini
  - Ekoloji ekspertiza layihələri şöbəsinin rəhbəri
  - Ekoloji ekspertiza layihələri şöbəsinin baş mütəxəssisi
- Görüşdə 5 Capitals şirkətinin ƏMSSTQ layihəsinin işçi heyəti və yerli konsultant iştirak etmişdir. İclasın məqsədi ƏMSSTQ prosesinin nəticələrinin, ƏMSSTQ sənədinin təqdim edilməsinin və qrafikin müzakirəsindən və nazirliyin qaldırdığı hər hansı sualların cavablandırılmasından ibarət olmuşdur.

## 5.3 Məlumatların ictimaiyyətə açıqlanması üçün keçirilən görüş

2022-ci ilin 8 və 10 yanvar tarixlərində Şitalçay kəndində məlumatların ictimaiyyətə açıqlanması üçün iki (2) iclas keçirilmişdir. İclasların məqsədləri aşağıdakılardan ibarət olmuşdur:

- Son 2 il ərzində Xızı 3 162.5MVt külək elektrik stansiyası layihəsiüçün həyata keçirilmiş müfəssəl ƏMSSTQ prosesinin nəticələrinin ictimaiyyətə açıqlanması;
- Milli və yerli hökumət orqanlarının ƏMSSTQ-nin nəticələri barədə rəy bildirməsinə imkan yaradılması;
- Təsirə məruz qalmış maraqlı tərəflərin və əlaqədar şəxslərin ƏMSSTQ prosesinin nəticələri barədə rəy bildirməsinə imkan yaradılması; və
- Aşağıdakılar barədə məlumat verilməsi:
  - Layihənin məqsədi, növü və miqyası;

- Təklif edilən layihə fəaliyyətlərinin (tikinti və istismar) müddəti;
- Risklər, təsirlər, müvafiq təsirazaltma tədbirləri və mənfəətlər; və
- İctimaiyyətin rəy formaları və şikayətə baxılması mexanizmi.

Azərbaycanda COVID pandemiyası ilə əlaqədar məhdudiyyətlər tətbiq olunduğuna görə iclasların hər birində maksimum 50 nəfərin iştirakına icazə verilmişdir. Maksimum sayda iştirakçıların işirakını təmin etmək üçün həftə günlərində və həftə sonunda iki (2) iclas keçirilmişdir. İclaslar kəndin idman klubunun ərazisində keçirilmişdir. İclas barədə elanlar və iclasa dəvətlər iclaslardan 10 gün qabaq göndərilmiş və mətbuatda və layihənin veb-səhifəsində (www.azerwind.az) yerləşdirilmişdir. Sakinlərin iclasa dəvət edilməsi barədə kənddə elanlar verilmiş və QHT-lərə və dövlət orqanlarına göndərilmişdir.

**Cədvəl 5-1 Məlumatların ictimaiyyətə açıqlanması üçün iclaslar – iştirakçılar**

| | ƏTRAFLI MƏLUMATLAR |
|---|---|
| Tarixlər | 8 və 10 yanvar 2022-ci il |
| Keçirildiyi yer | Sitalçay kəndi – Kəndin idman klubunun ərazisi |
| İştirakçıların sayı (cəmi) | 88 |
| Cins nisbəti | Qadınlar: 23<br>Kişilər: 65 |
| İştirakçılar | - 5 Capitals şirkətinin ƏMSSTQ qrupu<br>- Ecoenergy qrupu (yerli məsləhətçi)<br>- Yerli icma üzvləri (Sitalçay kəndi)<br>- QHT-lər, o cümlədən, Azərbaycan Ornitoloji Cəmiyyəti, Ekoloji Maarifçilik və Monitorinq İctimai Birliyi, Qadın və Uşaqların Təhsilinə Dəstək İctimai Birliyi, Sosial və Siyasi Tədqiqatlar İctimai Birliyi, Davamlı Turizmin İnkişafına Dəstək İctimai Birliyi<br>- Dövlər orqanları məsələn, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, Dövlət Məşğulluq Agentliyinin 10 saylı ərazi məşğulluq mərkəzi, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu, AMEA-nın Təbiət Tarixi Muzeyi, inzibati ərazi vahidlərinin nümayəndələri<br>- Gənclərin Turizmi İctimai Birliyi |

**Şəkil 5-1 Məlumatların ictimaiyyətə açıqlanması üçün keçirilən görüş – fotoşəkillər toplusu**

**FOTOŞƏKİLLƏR**





| FOTOŞƏKİLLƏR | |
|---|---|
|  |  |

Qeyd: Məsləhətləşmələrin məqsədi və nəticəsi ƏMSSTQ üzrə hesabatın 17-ci fəslində təqdim edilmişdir.

**Cədvəl 5-2 İctimaiyyət ilə məsləhətləşmə prosesi**

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF QURUMLAR | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) | MƏSLƏHƏTLƏŞMƏLƏR ÜÇÜN GÜNDƏLİK VƏ METODLAR | MƏSLƏHƏTLƏŞMƏ TARİXİ |
|---|---|---|---|---|
| Birbaşa təsirə məruz qalan icmalar (külək turbinləri, yarımstansiyalar, giriş-çıxış yolları və s.) | Sitalçay kəndinin yerli yaşayış icması, o cümlədən, həssas qruplar: qadınlar, yaşlılar, gənclər, əlil şəxslər, aztəminatlı ailələr, icmanın savadsız üzvləri | A: Turbinlərə və layihə sahəsinə ən yaxın icma. | Layihənin ekoloji və sosial təsiri ilə bağlı məsələlər və yerli sakinlərin layihə ilə bağlı üzləşə biləcəyi hər hansı məsələlər/problemlər<br><br>Yerli icmaya bir səhifəlik məktub paylanacaqdır.<br>İMM icma üzvlərinə layihə barədə məlumat verəcək və şikayətləri qəbul edəcəkdir<br>Məsləhətləşmə ərzində COVID məhdudiyyətləri və milli tələblər ilə əlaqədar olaraq maksimum 10 nəfərlə görüş keçirilmişdir. | 2020-ci ilin may ayında məktub göndərilib.<br><br>25 iyun 2020-ci il tarixində ictimaiyyətlə (10 nəfərlik qrup ilə) görüş keçirilib.<br><br>Bundan əlavə, maldarlar arasında sosial-iqtisadi tədqiqatlar ərzində layihə barədə məlumat verilib. 17 iyul və 5 avqust 2020-ci il tarixləri arasında Sitalçay kəndində 65 ailəni hədəf götürməklə sosial-iqtisadi tədqiqat (sorğu) aparılıb.<br><br>24 sentyabr 2021-ci ildə Sitalçay kəndinin qadınlarının və yaşlılarının, 24 yanvar 2022-ci ildə isə qaçqınların iştirakı ilə Hədəf Qrup ilə Müzakirələr (HQM) aparılıb. |
| Torpaq istifadəçiləri | Mövsümi fermerlər | A: Tikinti işlərinin mənfi təsirləri | Mövsümi otarma (rəsmi,qeyri-rəsmi) və torpaqdan digər istifadə halları ilə əlaqədar məsələlər | Sahədə müşahidə edilmiş (köçəri) maldar ilə qeyri-rəsmi müsahibə 2020-ci ilin oktyabrında aparılıb.<br><br>İMM-nin nümayəndələri 23 noyabr 2021-ci il tarixində telefon vasitəsi ilə yaxınlıqdakı 4 fermer ilə müsahibələr aparıb.<br><br>Rəsmi görüşlər/müsahibələr 2021-ci ilin fevral/mart aylarında təşkil edilib |

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF QURUMLAR | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) | MƏSLƏHƏTLƏŞMƏLƏR ÜÇÜN GÜNDƏLİK VƏ METODLAR | MƏSLƏHƏTLƏŞMƏ TARİXİ |
|---|---|---|---|---|
| | | | | Maldarlar arasında sorğu onların mövsümi fermalara qayıtmasından sonra 2021-ci ilin noyabrında aparılmışdır.<br><br>YVBP üzərə məsləhətləşmələrin tərkibində TMQBŞ ilə 12 və 16 mart 2022-ci il tarixlərində məsləhətləşmə aparılmışdır. |
| | TİM bağlamış fermerlər/maldarlar | | | Rəsmi görüşlər/müsahibələr 2020-ci ilin fevral/mart aylarında, əlavə görüş 17 avqust 2021-ci ildə keçirilib. |
| | Ovçular və bitki toplayanlar | | | Bələdiyyə ilə qeyri-rəsmi məsləhətləşmə aparılıb |
| Yerli hökumət orqanları | Sitalçay bələdiyyəsi | D: Layihə sahəsi bələdiyyənin yurisdiksiyası daxilində yerləşir | Torpağın istifadəsi və Layihənin ümumi inkişaf prosesi ilə bağlı məsləhətləşmələr aparılıb | Görüşlər 12 may 2020 və 4 fevral 2021-ci il tarixlərində keçirilib.<br><br>Aşağıdakıların müzakirəsi üçün YVBP üzrə məsləhətləşmələrin tərkibində 12 mart 2022-ci il tarixində üzbəüz görüş keçirilmişdir:<br>- Təklif edilmiş alternative torpaq sahəsi ilə əlaqədar məsələlərə, yəni, bu torpaq sahələrinin statusuna, su ehtiyatlarının istifadəsi imkanlarına, və s. aydınlıq gətirilməsi;<br>- Təsirə məruz qala bilən fermerlər ilə bağlanmış torpağın icarəsinə dair sazişlərin cari statusu;<br>- Yerli camaatın alternativ torpaq sahəsindən istifadəsinə aydınlıq gətirilməsi |

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF QURUMLAR | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) | MƏSLƏHƏTLƏŞMƏLƏR ÜÇÜN GÜNDƏLİK VƏ METODLAR | MƏSLƏHƏTLƏŞMƏ TARİXİ |
|---|---|---|---|---|
| Hökumət orqanları | Xızı rayon icra hakimiyyətinin yerli nümayəndəsi | D: Torpaq mülkiyyətçiliyi və torpaqdan istifadəyə nəzarət edən tənzimləyici qurumun bir hissəsi | Torpağın istifadəsi ilə bağlı məsləhətləşmələr | Məktub 29 iyun 2021-ci il tarixində göndərilib |
| | Energetika Nazirliyi | D: Layihənin işlənməsinə görə məsuliyyət daşıyır | Layihənin ümumi inkişaf prosesi ilə bağlı məsələlər | Virtual görüş 29 iyul 2020-ci il tarixində keçirilib |
| | Mədəniyyət və Turizm Nazirliyi | D: Mədəniyyət və arxeologiya sahələri/abidələri ilə bağlı məsələlərə nəzarət edən tənzimləyici qurumdur. | Layihə sahəsi daxilində mədəniyyət və arxeologiya sahələri/abidələri ilə bağlı məsələlər və Layihələrin tikintisi ərzində bu sahələrin ətrafında bufer zonalar/məsafələr üçün spesifik tələblər. | Elektron məktub 4 may 2021-ci il tarixində göndərilib |
| | Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu (AMEA AEİ) | D: Milli tələblərə uyğun olaraq Mədəniyyət Nazirliyi arxeoloji və irs sahələrində arxeoloji qazıntı işləri üçün icazələr verilməmişdən öncə Akademiyanın təsdiqini/məsləhətini tələb edir | Layihə sahəsi daxilində mədəniyyət və arxeologiya sahələri/abidələri ilə bağlı və bufer zonaların müəyyənləşdirilməsi ilə əlaqədar məsələlər | Akademiya Azərbaycan Respublikasının Tarixi və Mədəni Abidələr haqqında Qanunu ilə icazə verilən qaydada arxeoloji tədqiqatlar aparıb. Buna görə də məsləhətləşmələr və müzakirələr ƏMSSTQ prosesi ərzində davam edən bir proses olub.<br><br>Rəsmi görüş 12 noyabr 2020-ci il tarixində keçirilib.<br><br>Əlavə məsləhətləşmə: 1 iyul 2021-ci il tarixində rəsmi məktub da göndərilib |
| | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | D: Qorunan sahələrə, ekoloji baxımdan həssas sahələrə və ekoloji məsələlərə nəzarət edən tənzimləyici qurumdur. | Layihənin ümumi inkişaf prosesi və təsdiqlənməsi ilə bağlı məsələlər | 8 sentyabr 2020-ci il tarixində virtual görüş keçirilib<br><br>ƏMSSTQ-in nəticələrini, ƏMSSTQ-in təqdim olunması prosesini və qrafikini müzakirə etmək üçün 12 yanvar 2022-ci il tarixində üzbəüz görüş keçirilib |

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF QURUMLAR | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) | MƏSLƏHƏTLƏŞMƏLƏR ÜÇÜN GÜNDƏLİK VƏ METODLAR | MƏSLƏHƏTLƏŞMƏ TARİXİ |
|---|---|---|---|---|
| | Azərbaycan Respublikasının Nəqliyyat, Kommunikasiya və Yüksək Texnologiyalar Nazirliyi | D: Azərbaycanda nəqliyyata nəzarət edən tənzimləyici qurumdur | Maşın və mexanizmlərin çatdırılması (tələb olunduğu halda) ilə bağlı məsələlər | Məktub 29 iyun 2021-ci il tarixində göndərilib |
| Sənaye müəssisələri | Quşçuluq ferması | I: Layihə sahəsinə ən yaxın yerləşən sənaye müəssisəsidir | Layihənin təsirləri, habelə, qırğı və qartalların böyük ehtimalla quşçuluq fermasının tulantılarının axtarışı üçün quşçuluq fermasının ətrafına toplaşmasının müşahidə olunması ilə bağlı məsələlər<br><br>Qeyd: Quşçuluq fermasının rəhbəri məsləhətləşmə və müzakirə üçün hər hansı rəsmi görüşün təşkil olunmasından imtina edib | 2021-ci ilin 1 avqust tarixində qeyri-rəsmi görüş keçirilib |
| | Yeni Yaşma Külək Elektrik Stansiyası (Azərişıq– Operator) | I: Mövcud külək elektrik stansiyası | Yeni Yaşma Külək Elektrik Stansiyasının operatoru | “5 Capitals” şirkətinin məlumatlarla bağlı müraciəti məktubu 29 may 2021-ci il tarixində, elektron məktubu isə 31 may 2021-ci il tarixində göndərilib |

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF QURUMLAR | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) | MƏSLƏHƏTLƏŞMƏLƏR ÜÇÜN GÜNDƏLİK VƏ METODLAR | MƏSLƏHƏTLƏŞMƏ TARİXİ |
|---|---|---|---|---|
| Dövlət təşkilatları | Azərenerji | D: Layihə üçün tələb olunan hava elektrik verilişi xətlərinin (HEVX) çəkilməsi və elektrik enerjisinin təchiz olunması üçün alıcı və məsul qurumdur | ƏMSSTQ və Layihə üçün tələb olunan HEVX dizaynı ilə bağlı məlumat və Yeni Yaşma Külək Elektrik Stansiyası ilə əlaqədar göstəricilərin təqdim olunmasının xahiş edilməsi | Elektron məktub 21 sentyabr 2021-ci il tarixində göndərilib<br>Poçt ilə məktub 22 sentyabr 2021-ci il tarixində göndərilib |
| | Azərenerji Birgə Səhmdar Cəmiyyəti | | Layihə ilə əlaqəsi ola bilən məsələyə dair rəy verilməsi və külək turbinləri ilə mövcud HEVX və layihə sahəsindəki digər elektrik infrastrukturları arasında ara məsafəsi ilə bağlı tələblər kimi planlaşdırma və işlənmə zamanı və ya ƏMSSTQ sənədində nəzərdən keçirilməli hər hansı məsələlər barədə məlumatın artırılması üçün müraciət edilməsi. | Elektron məktub və poçt ilə məktub 21 sentyabr 2021-ci il tarixində göndərilib |
| | Azərbaycan Respublikasının Nəqliyyat, Kommunikasiya və Yüksək Texnologiyalar Nazirliyi, Aztelekom MMC | D: Layihə sahəsindən cənub-şərqdə telekommunikasiya qülləsi mövcuddur | Layihə ilə əlaqəsi ola bilən məsələyə dair rəy verilməsi və planlaşdırma və işlənmə zamanı və ya ƏMSSTQ sənədində nəzərdən keçirilməli hər hansı məsələlər barədə məlumatın | Elektron məktub 21 sentyabr 2021-ci il tarixində göndərilib<br>Poçt ilə məktub 22 sentyabr 2021-ci il tarixində göndərilib |

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF QURUMLAR | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) | MƏSLƏHƏTLƏŞMƏLƏR ÜÇÜN GÜNDƏLİK VƏ METODLAR | MƏSLƏHƏTLƏŞMƏ TARİXİ |
|---|---|---|---|---|
| | Milli Televiziya və Radio Şurası | D: Layihə sahəsində telekommunikasiya sistemləri barədə məlumat almaq üçün müraciət edilməsi və hər hansı xüsusi tələblər barədə rəy alınması | artırılması üçün müraciət edilməsi. Həmçinin, layihə sahəsində hər hansı telekommunikasiya qüllələrinin və infrastrukturun yerləşməsinin yoxlanılması. | Elektron məktub 21 sentyabr 2021-ci il tarixində göndərilib<br><br>Poçt ilə məktub 22 sentyabr 2021-ci il tarixində göndərilib |
| | Minatəmizləmə Agentliyi | D: Zonaların təhlükəsizliyini təmin edir və partlamamış sursatları layihə sahələrindən təmizləyir | Layihəyə aidiyyatı ola bilən məsələlər barədə rəyin verilməsi və planlaşdırma və işlənmə zamanı və ya ƏMSSTQ-də nəzərdən keçirilməli olan hər hansı məsələ, o cümlədən, aşağıdakılar ilə əlaqədar tələblər barədə məlumatın artırılması üçün müraciət edilməsi:<br>- Layihə sahələrində radarlar, vertolyot meydançaları, və s. kimi aviasiya infrastrukturu ilə külək turbnlərinin arasında ara məsafəsi ilə əlaqədar hər hansı tələblərin olması;<br>- Layihələrin tikintisi və istismarı ərzində hər hansı təhlükəsizlik zonalarının müəyyən olunması;<br>- Təklif edilmiş layihə sahələrindən minomyot və yüngül artilleriya kimi partlamamış sürsat ilə təlimlərin aparılması üçün | Məktub 10 noyabr 2021-ci il tarixində göndərilib |
| | Azərbaycan Respublikasının Nəqliyyat, Kommunikasiya və Yüksək Texnologiyalar Nazirliyi, Dövlət Mülki Aviasiya Agentliyi | D: Rəyin verilməsi və layihə sahələrinin təmizlənməsi üçün müraciət edilməsi. | | Məktub 20 oktyabr 2021-ci il tarixində göndərilib |

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF QURUMLAR | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) | MƏSLƏHƏTLƏŞMƏLƏR ÜÇÜN GÜNDƏLİK VƏ METODLAR | MƏSLƏHƏTLƏŞMƏ TARİXİ |
|---|---|---|---|---|
| | | | istifadə edilməsi və sahədə partlamamış silah-sursatların olması; | |
| | Müdafiə nazirinin müavini – Hərbi Hava Qüvvələrinin komandanı | D: Rəyin verilməsi və layihə sahələrinin təmizlənməsi üçün müraciət edilməsi.<br><br>Layihə sahələrinə yaxın məsafədə vertolyot meydançaları olan hərbi hissə mövcuddur. | | Məktub 4 oktyabr 2021-ci il tarixində göndərilib |
| | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | D: Abşeron rayonunun su məsələləri üzrə səlahiyyətli orqanıdır | Layihə, o cümlədən, aşağıdakılar barədə tələblər ilə əlaqədar rəy üçün müraciət edilməsi:<br>- Abşeron və Xızı rayonlarında su təsərrüfatı obyektləri (qurumun adını göstərin) tərəfindən idarə edilir.<br>- İstisara buraxılma və istismar fazaları ərzində layihələrin istifadə edə | Elektron məktub 25 oktyabr 2021-ci il tarixində göndərilib |
| | AZƏRSU Açıq Səhmdar Cəmiyyəti | D: Su təchizatı və çirkab sularının idarə olunması üzrə səlahiyyətli qurumdur | | Məktub və elektron məktub 21 sentyabr 2021-ci il tarixində təqdim edilib |

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF QURUMLAR | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) | MƏSLƏHƏTLƏŞMƏLƏR ÜÇÜN GÜNDƏLİK VƏ METODLAR | MƏSLƏHƏTLƏŞMƏ TARİXİ |
|---|---|---|---|---|
| | Xızı Sukanal İdarəsi | D: Xızı rayonunun Sukanal İdarəsidir | biləcəkləri su mənbələri (Abşeron və Xızı ərazilərində). Kanalın suyundan istifadə oluna bilərmi?<br>- Layihənin bütün fazaları ərzində nəzərdən keçirilməli hər hansı digər tələblər. | |
| | Xızı rayon icra hakimiyyəti | D: Xızı rayonunda tullantıların idarə olunması üzrə səlahiyyətli qurumdur | Aşağıdakılar da daxil olmaqla, layihəyə aidiyyatı ola bilən məsələlərə dair rəy verilməsi və məlumatların təqdim edilməsi üçün müraciət olunması:<br>- Xızı və Abşeron rayonlarında təhlükəli və təhlükəsiz tullantıların emalı və utilizasiyası üçün lisenziyalı obyektlərdir. Belə obyektlər mövcud deyilsə, layihə ən yaxınlıqdakı mövcud obyetlərdən istifadə edə bilər.<br>- Tulantıların emalı və resirkulyasiyası ilə məşğul olan şirkətlər də daxil olmaqla, (təhlükəli və təhlükəsiz) tullantıların daşıması və idarə olunması üçün təsdiq edilmiş şirkətlərin siyahısı.<br>- Hər hansı digər tələblər | Məktub və elektron məktub 21 sentyabr 2021-ci il tarixində təqdim edilib |

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF QURUMLAR | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) | MƏSLƏHƏTLƏŞMƏLƏR ÜÇÜN GÜNDƏLİK VƏ METODLAR | MƏSLƏHƏTLƏŞMƏ TARİXİ |
|---|---|---|---|---|
| | Azersu Açıq Səhmdar Cəmiyyəti | D: Tulantı sular üzrə səlahiyyətli qurumdur | Aşağıdakılar da daxil olmaqla, layihəyə aidiyyatı ola bilən məsələlərə dair rəy verilməsi və məlumatların təqdim edilməsi üçün müraciət olunması:<br><br>- Xızı və Abşeron rayonlarında tullantı suların təmizlənməsi üçün lisenziyalı qurğular. Yoxdursa, layihə üçün stifadə edilə bilən yaxınlıqdakı qurğular.<br>- Təsdiqlənmiş nəqliyyat şirkətlərinin siyahısı (təhlükəli tulantı suları və məişət/çirkab suları)<br>- Layihənin bütün mərhələləri ərzində nəzərdən keçiriləcək hər hansı digər tələblər | 2021-ci ilin 25 oktyabr tarixində elektron poçt və poçt vasitəsi iləgöndərilmiş məktub və 2022-ci il 15 mart tarixli cavab məktubu. |
| Media | Regional və yerli kütləvi informasiya vasitələrinin siyahısı | D: Layihə barədə reportajın hazırlanmasına və məlumatların yayılmasına maraq göstərəcəkləri ehtimal olunur. | Planlaşdırılan layihənin kütləvi informasiya vasitələrində işıqlandırılması ilə əlaqədar məsələlər (lazımdırsa, iş həcminin müəyyənləşdirilməsi mərhələsində)) | Xüsusi məsləhətləşmə tələb olunmur.<br>Məlumatın ictimaiyyətə açıqlanması üçün görüşün 2021-ci il 30 dekabr tarixində Respublika qəzetində elan edilmişdir. |

| MARAQLI TƏRƏF QRUPU | MARAQLI TƏRƏF QURUMLAR | LAYİHƏ İLƏ ƏLAQƏSİ: TƏSİRƏ MƏRUZ QALAN (A), MARAQ GÖSTƏRƏN (I), VƏ YA QƏRAR QƏBUL EDƏN (D) | MƏSLƏHƏTLƏŞMƏLƏR ÜÇÜN GÜNDƏLİK VƏ METODLAR | MƏSLƏHƏTLƏŞMƏ TARİXİ |
|---|---|---|---|---|
| Maliyyə institutları | AYİB/AİB/ AİİB<br>(və yəqin ki, başqaları) | D: Layihə üçün maliyyə vəsaitinin təmin olunması | ƏMSSTQ həcminin Kreditorların tələblərinə uyğunluğunu təmin etmək üçün davam edən dialoqun aparılması | Görüşlər aşağıdakı kimi keçirilmişdir:<br><br>Quşlar və yarasalar ilə bağlı tədqiqatları müzakirə etmək üçün AYİB ilə görüş 10 dekabr 2020-ci il tarixində keçirilib<br><br>İş həcmi haqqında hesabatı müzakirə etmək üçün AİİB ilə görüş 5 mart 2021-ci il tarixində keçirilib<br><br>HEVX və Külək Elektrik Stansiyası ilə bağlı iş həcmini müzakirə etmək üçün AİB ilə görüş 8 iyul 2021-ci il tarixində keçirilib<br><br>ƏMSSTQ-nin statusunu müzakirə etmək üçün AYİB ilə görüş 11 noyabr 2021-ci il tarixində keçirilib. |
| QHT-lər | ETSN-nin QHT-lərə Dövlət Dəstəyi Şurası, o cümlədən, Azərbaycan Skautlar Assossiasiyası, Milli Ekoloji Proqnozlaşdırma Mərkəzi və İrəli İctimai Birliyi | I: Layihənin icra olunması və onun ekoloji və sosial təsirləri və təsirazaltma tədbirləri ilə maraqlanacaq. | İş həcminin müəyyənləşdirilməsi mərhələsi: layihənin təqdim edilməsi və onun işlənməsinə dair rəy alınması. | Görüş 16 may 2020-ci il tarixində keçirilmişdir. |
| | Qoşma C-də təqdim edilmiş QHT-lərin siyahısı | I: Layihənin icrası. Onun ekoloji və social təsirləri və təsirazaltma tədbirləri ilə maraqlanacaq. | Layihənin işlənməsi ilə əlaqədar gözlənilən təsirlər barədə məlumat verilməsi | İctimaiyyətin məlumatlandırılması üçün 2022-ci ilin 8 və 10 yanvar tarixlərində keçirilmiş görüşlərin tərkib hissəsidir. |
| Tədqiqatçılar və ekspertlər | Rob Şeldon: Ornitoloq | I: Ekspertlər layihə sahəsi rayonuna dair biliyə malikdirlər və keçmiş quş tədqiqatları və araşdırmaya cəlb olunub. | Layihə sahəsi/rayonu üçün quşlara dair mövcud göstəricilərin təqdim olunması ilə xahiş edilib | Elektron məktublar 3 və 7 iyun 2021-ci il tarixində göndərilmişdir |

## 5.4 İCTİMAİ MƏLUMAT MƏRKƏZİ (İMM)

Layihə üçün İMM 15 iyun 2021-ci il tarixində ACWA Power tərəfindən Layihə sahəsinin yaxınlığında yerləşən Sitalçay kəndində yaradılmışdır. İMM-nin məqsədi icma üzvlərinə Layihə haqqında məlumat vermək, şikayətləri qəbul etmək və Layihə üçün yerli işçilərin işə götürülməsinə yardım etməkdir. ACWA Power tərəfindən təqdim edilmiş məlumata görə tikinti mərhələsi ərzində işçi heyətinin əksəriyyətinin yerli icma üzvlərindən seçilməsi planlaşdırılır.

İMM-in əsas funksiyaları aşağıdakı kimi yekunlaşdırıla bilər:

- Yerli icmaya layihə ilə bağlı vəziyyət və hər hansı yeni işlər haqqında məlumat vermək;
- İcma daxilində plakatlar/posterlər yerləşdirməklə layihə ilə bağlı elanları yaymaq;
- İctimai şikayətləri almaq və emal etmək;
  - Şikayətləri qeydiyyatdan keçirmək və onları layihə rəhbərliyinə göndərmək;
  - Yekunaşdırılana qədər şikayətləri nəzarətdə saxlamaq; və
  - Şikayətlərin jurnalını saxlamaq və təmin etmək.
- Layihə üçün yerli işçilərin işə götürülməsinə kömək göstərmək;
  - İş elanları vermək;
  - Layihə şirkətinin/podratçılarının nümayəndələrini cəlb etməklə işlə bağlı müsahibələri təşkil etmək; və
  - Müsahibənin nəticələrini sənədləşdirmək və onların uçotunu aparmaq.
- Yerli səlahiyyətli qurumları və layihə rəhbərliyini cəlb etməklə ictimaiyyətlə görüşlər təşkil etmək;
- Layihəni işləyib hazırlayan tərəfin maliyyələşdirməsi üçün icmaların layihə ilə bağlı təkliflərini tərtib etmək; və
- İcmalarla bütün kommunikasiyanı sənədləşdirmək və onların uçotunu aparmaq.

**Şəkil 5-2 Sitalçay kəndində İctimai Məlumat Mərkəzi**





Şitalçay kəndindəki İMM-ə cəmi 800 nəfər baş çəkmişdir. Məşğulluq ilə əlaqədar yalnız bir rəsmi şikayət təqdim edilmişdir

# 6 GƏLƏCƏKDƏ MARAQLI TƏRƏFLƏR İLƏ QARŞILIQLI ƏLAQƏ PROQRAMI

Maraqlı tərəflər ilə qarşılıqlı əlaqə Layihənin tikinti, istismara buraxılma və istismar fazaları ərzində həyata keçiriləcək davamlı prosesdir. İstifadə edilən proseslər şəffaf olmalı, hədə-qorxuya, müdaxiləyə və zor işlənməsinə yol verilməməlidir. Hazırkı bölmənin məqsədi açıqlanacaq informasiyanı, onun formatını, informasiyanın bölüşdürülməsi üçün istifadə ediləcək metodların, habelə, əvvəlki bölmələrdə müəyyənləşdirilmiş maraqlı tərəflərin qruplarından hər biri ilə əlaqədar istifadə ediləcək məsləhətləşmə metodlarının növlərini təsvir etməkdir.

## 6.1 Qarşılıqlı əlaqə metodları

Layihənin tikintisi və əməliyyatlar ərzində cari maraqlı trəflər ilə qarşılıqlı əlaqə prosesi barədə maraqlı tərəflərin məlumatlandırılması üçün aşağıdakı metodlardan istifadə ediləcəkdir:

- ACWA Power tərəfindən işlənib hazırlanmış İctimai Məlumat Mərkəzi (İMM) – Yerli icmalar ilə qarşılqılı əlaqələrin yaradılması, şikayətlərə baxılması, işəgötürmə prosesinə şərait yaradılması və s. üçün bu mərkəzdən istifadə ediləcəkdir;
- Layihə barədə məlumat kitabçaları – Məlumat kitabçaları həssas (aztəminatlı) qrupların arasında paylanacaq və (İMM-dən əldə edilə bilən) ƏMSSTQ üzrə açıqlama sessiyasında iştirak edə bilməmiş şəxslərə təqdim ediləcəkdir. Kitabçalara layihənin mənfi və müsbət təsirlərinin xülasəsi və şikayətlərə baxılması mexanizmi barədə məlumat daxil ediləcəkdir;
- Məktublar, telefon zəngləri və elektron məktub – iştirakçı maraqlı tərəflər ilə əlaqələrin yaradılması və qarşılılqı əlaqə və məlumatları açıqlama mexanizmləri barədə onların məlumatlandırılması üçün münasibdir;
- İkitərəfli görüşlər – müəyyənləşdirilmiş təsirə məruz qalmış və iştirakçı maraqlı tərəflərin fikir və rəylərini bildirməsinə şərait yaradılması və qarşılıqlı əlaqə və məlumatın açıqlanması mexanizmləri barədə onların məlumatlandırılması üçün belə maraqlı tərəflər ilə əlaqənin yaradılması üçün münasibdir.
- Posterlər və bildirişlər – İMM-də və sahənin layihə ilə əlaqədar əsas yerlərində (məsələn, müvəqqəti tikinti düşərgəsinin əsas girişində) şikayətə baxılma mexanizmi barədə birbaşa məlumatlar da daxil olmaqla, nişanlar və izahlı posterlər (məlumatlandırıcı təsvirlər) yerləşdiriləcəkdir.
- Sosial media – Buraya Layihə barədə ümumi məlumatların bölüşdürülməsi üçün WhatsApp, Telegram, Zoom və s. kimi xəbərləşmə platformalarından istifadə daxil ola bilər. Maraqlı tərəfə dair məlumat bazası yaradılırsa, məlumatların məxfiliyi və qorunması təmin olunmalıdır.
- İcma rəhbərləri ilə görüşərin keçirilməsi – Bu qeyri-rəsmi görüşlər icma ilə müvafiq əlaqələr yaratmaq və icmanın üzləşə biləcəyi hər hansı məsələləri aradan qaldırmaq üçün icma rəhbərləri ilə keçirilə bilər.
- Onlayn – İştirakçı maraqlı tərəflər üçün faydalıdır. Layihənin tikinti və istismar fazaları ərzində ƏMSSTQ dəsti üzrə qarşılıqlı əlaqə və məlumatların açıqlanma mexanizmləri, o cümlədən, iradların bildirilməsi üçün əlaqə saxlanılacaq şəxs barədə

məlumat ACWA Power şirkətinin veb-səhifəsində reklam ediləcəkdir. Eyni məlumatlar kredit institutunun müvafiq veb-səhifələrində də təqdim ediləcəkdir.

## 6.2 E və S sənədlərin açıqlanması

Kreditorların və ETSN-nin tələbinə əsasən E və S ilə əlaqədar məsələlər ictimaiyyətə açıqlanacaqdır. Açıqlama sessiyalarında hazırkı MTQƏP sənədində müəyyənləşdirilmiş əsas maraqlı tərəflər iştirak edəcəkdir (aşağıdakı cədvələ istinad etməyiniz xahiş olunur). Açıqlamada məqsəd ƏMSSTQ prosesinin nəticələrini təqdim etmək və şikayətlərə baxılma mexanizmi və onun istifadə qaydası kimi MTQƏP-nin əsas elementləri də daxil olmaqla, əsas təsirazaltma və idarəetmə tədbirləri barədə məsləhət verməkdir.

COVID-19 pandemiyasına və ictimaiyyətə açıqlama ərzində Azərbaycanda qüvvədə olan (və tətbiq edilə bilən) rəsmi məhdudiyyətlərə görə COVID-19 üzrə rəsmi məhdudiyyətləri və sosial məsafə tədbirlərini nəzərə almaqla, alternativ metodlar işlənib hazırlanacaqdır. Bu zaman COVID ilə əlaqədar məhdudiyyətlər ərzində AYİB-in konsultantlar üçün nəzərdə tutulmuş məlumat kitabçası əsas götürüləcəkdir.

COVID-19 pandemiyası ilə əlaqədar ictimai yığıncaqların keçirilməsinə qoyulmuş məhdudiyyətlər imkan verdikdə, ƏMSSTQ üzrə qeyri-texniki xülasə, YVBP-nin layihə variantı və MTQƏP (o cümlədən, Şikayətlərə baxılması mexanizmi) məlumatların ictimaiyyətə açıqlanması üçün keçirilən iclasların vasitəsi ilə müxtəlif maraqlı tərəflərə (tətbiq edilə bilən hallarda, təsirə məruz qalmış və iştirakçı maraqlı tərəflərə) açıqlanacaqdır.

Məlumatların ictimaiyyətə açıqlanması üçün keçirilən bu görüşə ƏMSSTQ sənədinin layihə variantının ictimaiyyətə açıqlanması üçün keçirilən görüş ərzində məsləhətləşmə aparılmış tərəflər dəvət ediləcəkdir. Bu görüşə yerli icmalar, təsirə məruz qala bilən tərəflər, QHT-lər, və s. də daxil olacaq, lakin onlar ilə məhdudlaşmayacaqdır. Məsləhətləşmə aparılmamış və ya ƏMSSTQ sənədinin layihə variantının ictimaiyyətə açıqlanması üçün keçirilmiş görüşdə iştirak edə bilməmiş şəxslərin də görüşə dəvət edilməsi nəzərdə tutulur.

**Cədvəl 6-1 İctimaiyyətə açıqlama prosesinin qrafiki**

| FƏALİYYƏT | MARAQLI TƏRƏFLƏR | QARŞILQILI ƏLAQƏ METODU | VAXT VƏ TEZLİK |
|---|---|---|---|
| **ƏMSSTQ və E və S sənədlərinin aşıqlanması** | Bütün müəyyənləşdirilmiş maraqlı tərəflər (təsirə məruz qalan və iştirakçı maraqlı tərəflər. o cümlədən, həssas qruplar) | Kreditorlar ilə razılaşdırıldıqdan sonra ƏMSSTQ üzrə tədqiqat, Qeyri-Texniki Xülasə (QTX), MTQƏP və YVBP-in layihə variantı onlayn rejimdə tam açıqlanacaqdır. Maliyyə məsələlərinin yekunlaşdırılmasından qabaq sənədlər “ACWA Power” şirkətinin veb-səhifəsində yerləşdiriləcəkdir. Müvafiq hallarda, maraqlı tərəf qeyd edilən açıqlama müddəti ərzində iradlarını bildirmək və ya əlavə məlumat üçün müraciət etmək imkanına malik olacaqdır. | AYİB üçün maliyyə məsələlərinin yekunlaşdırılmasından qabaq minimum 60 gün açıqlama müddəti, AİB üçün 120 gün |

| FƏALİYYƏT | MARAQLI TƏRƏFLƏR | QARŞILQILI ƏLAQƏ METODU | VAXT VƏ TEZLİK |
|---|---|---|---|
| | | Bu sənədlər AYİB də daxil olmaqla, kreditorun veb-səhifəsində açıqlanacaq və ingilis və azərbaycan dillərində ƏMSSTQ üzrə tədqiqatdan, QTX-dən, YVBP-in layihə variantından, Ekoloji və Sosial İdarəetmə və Monitorinq Prinsiplərindən, hazırkı MTQƏP-dən və Ekoloji və Sosial Tədbirlər Planından (ESTP) ibarət olacaqdır.<br><br>Maraqlı tərəflərdən hər hansı birinin onlayn variantdan istifadəsi mümkün olmazsa, bu halda onlar ƏMSSTQ-in, MTQƏP-in, YVBP-in layihə variantının nüsxələrini Layihə üzrə İMM-də nəzərdən keçirə biləcəkdir.<br><br>Layihə barədə ən son məlumatları alması və üzləşdikləri hər hansı məsələlərə dair suallar verməsi üçün QHT-lər İMM-in ofisində ardıcıl açıq qapı tədbirlərinə dəvət ediləcəkdir<br>. | |
| | Təsirə məruz qalmış maraqlı tərəflər | Təsirə məruz qalmış maraqlı tərəflərin onlayn rejimdə açıqlanan sənədlərdən istifadəsinin mümkün olmadığı hallarda (COVID-19 ilə əlaqədar məhdudiyyətlərin nəzərdə tutulmadığı hallarda) ƏMSSTQ, QTX, MTQƏP və YVBP-in layihə variantının nəticələri, proses, şikayətlərə baxılması prosesindən istifadə və kompensasiya və ya köçürülmə qrafikləri (tətbiq olunarsa) barədə məlumat vermək məqsədi ilə ikitərəfli görüşlər keçiriləcəkdir.<br><br>COVID-19 pandemiyasına görə ictimai toplantının məhdudlaşdırıldığı hallarda, QTX, MTQƏP və YVBP-in layihə variantı qısa video materiallardan istiadə edilərək açıqlanacaq və icmanın mövcud xəbərləşmə platformaları vasitəsi ilə yayılacaqdır.<br><br>Bundan əlavə, yaşlıların və internetdən istifadə edə bilməyən şəxslərin də rahat nəzərdən | |

| FƏALİYYƏT | MARAQLI TƏRƏFLƏR | QARŞILQILI ƏLAQƏ METODU | VAXT VƏ TEZLİK |
|---|---|---|---|
| | | keçirə bilməsi üçün QTX-in, YVBP-in layihə variantının və MTQƏP-in çap olunmuş variantları yerli dillərdə (Azərbaycan dilində) İMM ofisində yerləşdiriləcəkdir. | |
| | Zəif qruplar | İMM ofisi kəndin ərazisində yerləşdiyinə və rahat getmək mümkün olduğuna görə İMM-ə getmək üçün xüsusi tədbirlərin görülməsi tələb olunmur. Tələb olunarsa, İMM-nin nümayəndələri əlillərin və yaşlıların evlərinə baş çəkəcək və QTX-in və MTQƏP-in nüsxələrini təqdim edəcəkdir.<br><br>Bundan əlavə, icmanın xəbərləşmə platformalarının vasitəsi ilə qısa videolar paylaşılacaqdır. | |
| | | | |
| | | | |

AYİB-in 60 günlük, AİB-in 120 günlük açıqlama müddətləri başa çatdıqdan sonra əlavə məsləhətləşmələrin və həmin açıqlama müddəti ərzində əldə edilmiş rəylərin əsasında ictimaiyyət ilə məsləhətləşmə və ictimaiyyətə açıqlama barədə hesabat işlənib hazırlanacaqdır. Məlumatların açıqlanması üçün görülmüş tədbirlər, alınmış rəylər və onların yekun ƏMSSTQ sənədində və idarəetmə planlarında nəzərdən keçirilib-keçirilməməsi və qaydası izah olunmaqla, bu rəylərdən ibarət hesabat ƏMSSTQ sənədinin yekun dəsti ilə birlikdə " ACWA Power" şirkətinin veb-səhifəsində yerləşdiriləcəkdir.

## 6.3 Cəzaların qarşısının alınması üçün görülən tədbirlər

Layihənin istismar dövrü ərzində qarşılıqlı əlaqələrin səmərəliliyinə əmin olmaq üçün maraqlı tərəflər cəza (məsələn, hədələnmə, qısnanma və ya zor) qorxusu olmadan rəy bildirə, fikirlərini ifadə edə və onları narahat edən məsələlər barədə məlumat verməyi bacarmalıdır. Layihə şirkəti (LŞ), MST və İ və TX şirkəti, habelə, layihənin icrasına cəlb edilmiş bütün subpodratçılar və subkonsultantlar tərəfindən aşağıdakılar tətbiq ediləcəkdir:

- Cəzalandırma hallarına yol verilməməsi barədə siyasət qəbul ediləcək və bu Davranış Kodeksində və şirkətin normalarında əksini tapacaqdır. Bütün qarşılıqlı əlaqələr ərzində maraqlı tərəflər bu barədə məlumatlandırılacaqdır;
- Cəzalandırma riski ilə əlaqədar məsələ yaranarsa (məsələn, fikir bildirdiyinə görə maraqlı tərəf təhlükəsizliyi ilə əlaqədar yaranmış vəziyyətə dair məslə qaldırarsa və ya onu narahat edən məsələ barədə məlumat verərsə), iştirakçıların təhlükəsizliyini təmin etmək üçün maraqlı tərəf ilə qarşılıqlı əlaqə prosesinin vəziyyətə uyğunlaşdırılması (məsələn, görüşün keçiriləcəyi yerin və ya konsultasiya tarixinin açıqlanmaması) tələb edilə bilər.

- İştirakçılar qarşılıqlı əlaqə/məsləhətləşmə prosesinin məqsədi barədə məlumatlandırılacaq və iştirak siyahısının imzalanması üçün razılıq əldə edəcəkdir. İştirakçılar bu məlumatlardan istifadə qaydası barədə məlumatlandırılacaq və onlara adlarını açıqlamamaq seçimi veriləcəkdir;
- Şirkətin davranış kodeksinin yerinə yetirildiyinə əmin olmaq üçün işçi heyətininarasında məlumat artırılacaq və işçilərə yerli icma üzvləri və layihənin təsirinə mrəuz qalacağı ehtimal edilən şəxslər ilə ünsiyyət zamanı davranışları ilə əlaqədar gözləntilər barədə təlim keçiriləcəkdir;
- Cəzalandırma halları barədə iddialar nəzərdən keçiriləcək və onlara qarşı tədbirlər görüləcəkdir. Cavab tədbirləri görülərkən riskə məruz qalmış şəxslər ilə məsləhətləşmə aparılacaq və cəzalandırma hallarına qarşı tədbirlər və onların icra prosesi zərərçəkən şəxslərlə razılaşdırılacaqdır. Şəxsi məlumatlar açıqlanmayacaqdır.

İctimai dinləməyə icazə verilmədiyi təqdirdə alternativ metodlar da nəzərdən keçirilir. Belə metodlara aşağıdakılar daxil ola blər:

- Layihənin İctimai Məlumat Mərkəzində ƏMSSTQ və E və S sənədlərindən tam istifadə imkanı;
- Layihənin E və S sənədləri üçün xüsusi veb-səhifə (ehtiyat variant kimi artıq yaradılıb);
- Məlumatların açıqlanması üçün kiçik qruplar formasında iclasların təşkili;
- Sosial medianın vasitəsi ilə layihənin nəticələrinin video təqdimatı; və
- Kitabçaların və məktubların daha geniş auditoriyaya təqdim edilməsi.

Metod həmin müddət ərzində tətbiq edilən normaların və məhdudiyyətlərin əsasında müəyyənləşdiriləcəkdir.

## 6.4 Tikinti və istismara buraxılma ərzində maraqlı tərəf ilə qarşılıqlı əlaqə

Tikinti və istismara buraxılma ərzində maraqlı tərəf ilə qarşılıqlı əlaqə, maraqlı tərəflərin layihə proseslərinin və tədbirlərin nəzərdə tutulan nəticələr verdiyini, təqdim edilmiş şikayətlərə cavab verildiyini və görülən tədbirlərin nəticəsiz qaldığı təqdirdə alternativ variantların müəyyənləşdirildiyini qiymətləndirməsinə imkan verəcəkdir. Layihənin qalan mərhələlərinin gedişini müəyyən edə biləcəyindən, tikinti və istismara buraxılma fazaları ərzində maraqlı tərəflər ilə qarşılıqlı əlaqələrin səmərəli idarə olunması əhəmiyyət daşıyır (İstinad: BMK, Maraqlı tərəflər ilə qarşılıqlı əlaqələrə dair təlimat kitabçası).

Tikinti və istismara buraxılma ilə əlaqədar qarşılıqlı əlaqə prosesləri aşağıda təsvir edilib.

**Cədvəl 6-2 Tikinti və istismara buraxılma fazaları üzrə MTQƏP-in qrafiki**

| FƏALİYYƏT | MARAQLI TƏRƏFLƏR | QARŞILIQLI ƏLAQƏ METODU | VAXT VƏ TEZLİK |
|---|---|---|---|
| YVBP-ya uyğun olaraq kompensasiya və yaşayış vasitələrinin bərpası üzrə tədbirlər | YVBP-lərdə təsirə məruz qalacağının ehtimal edildiyi müəyyənləşdirilmiş şəxslər (fermerlər, maldarlar və bitki toplayanlar) | YVBP-ya uyğun olaraq | Tikintidən və ilkin işlərin başlamasından qabaq |
| **Tikinti və istismara buraxılma fəaliyyətləri, o cümlədən, onların qrafiki barədə maraqlı tərəflərə bildiriş təqdim edilməsi** | Birbaşa və dolayıyı yolla təsirə məruz qalmış maraqlı tərəflər | İMM-də, müvəqqəti tikinti obyektlərinin girişlərində və giriş yolu marşrutu üzərində strateji yerlərdə rəsmi bildirişlər nümayiş etdiriləcəkdir. Bildirişlərdə tikintinin və istismara buraxılmanın başlama tarixi və işlərin görülməsi zamanı mümkün manelər (məsələn, yolun bağlanması, ləngimələr, və s.) barədə məlumat veriləcəkdir.<br><br>Tikintinin başlaması və layihənin tikinti qrafikində hər hansı dəyişikliklər barədə məlumatlandırılması üçün birbaşa təsirə məruz qalmış maraqlı trəflər ilə ikitərəfli görüşlər də keçiriləcəkdir | Tikinti və istismara buraxılma fəaliyyətlərinin başlamasından qabaq həyata keçiriləcəkdir. Planlaşdırılmış fəaliyyətlərdə və ya proseslərdə dəyişikliklər olarsa, tikinti və istismara buraxılma fazaları çərçivəsində lazımi yenilənmələr aparılacaqdır. |
| | Yerli hökumət qurumları və orqanları | Tikinti və istismara buraxılma fəaliyyətləri və onların qrafiki barədə məlumat təqdim etmək üçün mövcud yerli qurumlar ilə koordinasiyalı şəkildə rəsmi elektron bildiriş və ya məktublar göndəriləcəkdir | |
| | QHT-lər | | |
| | Bütün maraqlı tərəflər | ACWA Power şirkətinin veb-səhifəsində layihə üzrə tikinti və istismara buraxılma fəaliyyətləri və onların qrafiki barədə bildiriş təqdim ediləcəkdir (Bu ACWA Power şirkətinin veb-səhifəsinə yüklənəcək ƏMSSTQ sənədləri ilə əlaqədar görüləcək tədbirlərə daxildir). | |
| Tikinti və istismara verilmə fəaliyyətləri, o cümlədən, onların qrafiki barədə maraqlı tərəflərə bildiriş verilməsi – **HEVX alıxı (Azərenerji)** | HEVX-in yekun marşrutuna görə birbaşa və ya dolayısı ilə təsirə məruz qalmış maraqlı tərəflər | Milli tələblərə uyğun olaraq | Tikinti və istismara verilmə mərhələlərinin başlamasından qabaq |

| FƏALİYYƏT | MARAQLI TƏRƏFLƏR | QARŞILIQLI ƏLAQƏ METODU | VAXT VƏ TEZLİK |
|---|---|---|---|
| **tərəfindən həyata keçiriləcək** | | | |
| Mövsümi fermerlər/ bitkilərin toplanması fəaliyyətləri ilə bağlı əlaqə | Mövsümi fermerlər, bitki toplayanlar, və s. | Layihədə hər hansı yeniliklər Layihənin İctimai Məlumat Mərkəzinin (İMM) və Layihə Şirkətinin (LŞ) vasitəsi ilə mövümi maldarlara təqdim ediləcəkdir. Fəaliyyətləri ilə əlaqədar məlumatlandırma prosesində hər hansı yeniliklər üçün maldarların, bitki toplayanların və bütün TMQBŞ-lərin telefon nömrələrindən ibarət yenilənmiş siyahı İMM-in ofisində saxlanılacaqdır. | Layihənin tikinti mərhələsi boyu hər rüb |
| **Fövqəladə hallara hazırlıq və tədbirlər planı barədə məlumatlandırma** | Maldarlar və yaxınlıqdakı fermerlər | Qəza planı barədə məlumatlandırılmaları üçün bu maraqlı tərəflər ilə ikitərəfli görüşlər keçiriləcək və onları narahat edən məsələlərin əsasında optimallaşdırıcı tədbirlər görüləcəkdir. Qəza hallarına qarşı tədbirlərin planlaşdırılmasına dair məlumat da Layihənin İctimai Məlumat Mərkəzindən əldə edilə bilər. | Tikinti və istismara buraxılmanın başlamasından qabaq və planlaşdırılan belə tədbirlərdə əhəmiyyətli dəyişikliklərin olduğu təqdirdə həyata keçiriləcəkdir. |
| | Yerli hökumət qurumları və orqanları | Fövqəladə hallara qarşı cavab tədbirləri prosedurlarının hazırlanması və xüsusi tədbirlər ilə əlaqədar koordinasiyanın tələb olunması barədə məlumat verilən rəsmi bildirişlər və ya məktublar göndəriləcəkdir.<br>Lazım olan hallarda, ikitərəfli görüşlər keçiriləcəkdir. | |
| **GƏZ və CİZ\CQ hallarının qarşının alınması və onlara qarşı tədbirlərin görülməsi barədə məlumatlandırma** | Layihə sahəsinin yaxınlığındakı icmaların qadınları, cavan qız və oğlanları | Reproduktiv sağlamlığın qorunması, CYYX-lər və gender əsaslı zorakılıq barədə məlumatlandırılmaları və hər hansı GƏZ və CİZ və CQ halları barədə məlumat verməyə təşviq edilmələri üçün Layihə sahəsinin yaxınlığında yerləşən icmaların qadınları, gənc oğlan və qızları ilə ikitərəfli görüşlər keçiriləcəkdir. | Layihənin tikinti fazası ərzində hər rüb həyata keçiriləcəkdir |
| **Ekoloji və sosial məsələlər üzrə müstəqil monitorinq və hesabat** | Layihənin kreditorları | Layihələrin Azərbaycanın standartlarına, kreditorun tələblərinə və kredit öhdəliklərinə uyğunluğunun qiymətləndirilməsi üçün | Layihənin tikinti və istismara buraxılma fazaları ərzində hər rüb həyata keçiriləcəkdir. |

| FƏALİYYƏT | MARAQLI TƏRƏFLƏR | QARŞILIQLI ƏLAQƏ METODU | VAXT VƏ TEZLİK |
|---|---|---|---|
| | | ekoloji və sosial məsələlərin auditi aparılacaqdır.<br>GƏZ - CİZ\CQ hallarının qarşısının alınması və belə hallara qarşı tədbirlərin görülməsi, baxılmış şikayətlərin sayı, layihənin işçi heyəti üçün təşkil edilən CİZ\CQ barədə məlumatlandırıcı təlimlər, və s. daxil ediləcəkdir. | |
| **Şikayətlərə baxılması mexanizminin yerinə yetirilməsi** | Bütün müəyyənləşdirilmiş maraqlı tərəflər | Hazırkı MTQƏP sənədinin şikayətlərə baxılması mexanizmi bölməsində təsvir edilib (Bax: Bölmə 7). | Tikinti və istismara buraxılma fazaları başlanan zaman müəyyənləşdiriləcək və sürətli və effektiv cavab tədbirlərinin görülməsinə şərait yaradılması üçün Layihə boyu yenilənəcəkdir. |

## 6.5 İstismar ərzində maraqlı tərəf ilə qarşılıqlı əlaqə

Tikinti və istismara buraxılma fazaları ərzində ən effektiv nəticələr əldə edilmiş üsulları qeyd edərək, maraqlı tərəflər ilə qarşılıqlı əlaqələrin Layihənin tikinti və istismara buraxılma fazalarından istismar fazasına maneəsiz keçidinin təmin edilməsi Layihə şirkəti və İTX şirkəti üçün əhəmiyyət daşıyacaqdır. Maraqlı tərəflər standart qarşılıqlı əlaqə prosesləri ilə atıq tanış olduğundan, maraqlı tərəflər ilə qarşılıqlı əlaqələrin tezliyində azalmanın qarşısını almaq üçün qeyd edilən üsulların davam etdirilməsi əhəmiyyətli olacaqdır.

**Cədvəl 6-3 İstismar fazası üzrə MTQƏP-nin qrafiki**

| FƏALİYYƏT | MARAQLI TƏRƏFLƏR | QARŞILIQLI ƏLAQƏ METODU | VAXT VƏ TEZLİK |
|---|---|---|---|
| **Tikinti/istismara buraxılma fazasından istismar fazasına keçid barədə maraqlı tərəflərə bildiriş təqdim edilməsi** | Təsirə məruz qalmış bütün maraqlı tərəflər | Layihənin istismar fazasının başlanması barədə məlumatlandırmaq üçün İMM-də, əsas layihə binalarında və turbin altlıqlarında rəsmi bildirişlər nümayiş etdiriləcəkdir. | Əməliyyatların başlanmasından ən azı 2 ay qabaq. |
| | Yerli hökumət qurumları və orqanları və QHT-lər | İstismar fazası üzrə fəaliyyətlər və qrafik barədə məlumat verməküçün rəsmi bildiriş və ya məktublar göndəriləcəkdir. | |
| **Fövqəladə hallara qarşı hazırlıqplanı və ya yerli xarici tərəflərə təsir göstərə bilən digər SƏTƏM ilə əlaqəli məsələlər** | Mövsümi maldarlar, bitki toplayanlar və yaxınlıqdakı fermerlər | Qəza planı barədə məlumatlandırılmaları üçün bu maraqlı tərəflər ilə ikitərəfli görüşlər keçiriləcək və onları narahat edən məsələlərin əsasında optimallaşdırıcı tədbirlər görüləcəkdir. | Əməliyyatların başlamasından 2 ay qabaq və planlaşdırılan belə tədbirlərdə əhəmiyyətli dəyişikliklərin olduğu |

| FƏALİYYƏT | MARAQLI TƏRƏFLƏR | QARŞILIQLI ƏLAQƏ METODU | VAXT VƏ TEZLİK |
|---|---|---|---|
| | Hökumət qurumları, dövlət komitələri/agentliklər i<br>Yerli hökumət orqanları<br>Layihə kreditorları | Fövqəladə hallara qarşı cavab tədbirləri prosedurlarının hazırlanması və xüsusi tədbirlər ilə əlaqədar koordinasiyanın tələb olunması barədə mövcud hökumət agentliklərinə/orqanlarına məlumat verilən rəsmi bildirişlər və ya məktublar göndəriləcəkdir.<br>Lazım olan hallarda, ikitərəfli görüşlər keçiriləcəkdir | təqdirdə həyata keçiriləcəkdir |
| **GƏZ və CİZ\CQ hallarının qarşının alınması və onlara qarşı tədbirlərin görülməsi barədə məlumatlandırma** | Layihə sahəsinin yaxınlığındakı icmaların qadınları, cavan qız və oğlanları | Reproduktiv sağlamlığın qorunması, CYYX-lər və gender əsaslı zorakılıq barədə məlumatlandırılmaları və hər hansı GƏZ və CİZ və CQ halları barədə məlumat verməyə təşviq edilmələri üçün Layihə sahəsinin yaxınlığında yerləşən icmaların qadınları, gənc oğlan və qızları ilə ikitərəfli görüşlər keçiriləcəkdir. | Layihənin istismar fazası ərzində ildə bir dəfə həyata keçiriləcəkdir. |
| **Ekoloji və sosial məsələlər üzrə müstəqil monitorinq və hesabat** | Layihə kreditorları | Layihələrin Azərbaycanın standartlarına, kreditorun tələblərinə və kredit öhdəliklərinə uyğunluğunun qiymətləndirilməsi üçün ekoloji və sosial məsələlərin auditi aparılacaqdır<br>GƏZ - CİZ\CQ hallarının qarşısının alınması və belə hallara qarşı tədbirlərin görülməsi, baxılmış şikayətlərin sayı, layihənin işçi heyəti üçün təşkil edilən CİZ\CQ barədə məlumatlandırıcı təlimlər, və s. daxil ediləcəkdir. | Layihənin istismar fazası ərzində ildə bir dəfə həyata keçiriləcəkdir. |
| **Şikayətlərə baxılması mexanizminin yerinə yetirilməsi** | Bütün müəyyənləşdirilmiş maraqlı tərəflər | Hazırkı MTQƏP sənədinin şikayətlərə baxılması mexanizmi bölməsində təsvir edilib (Bax: Bölmə 7) | Əməliyyatlar başlanan zaman müəyyənləşdiriləcək və sürətli və effektiv cavab tədbirlərinin görülməsinə şərait yaradılması üçün istismar fazası boyu idarə ediləcəkdir. |

# 7 ŞİKAYƏTLƏRƏ BAXILMASI MEXANİZMİ

Layihə fəaliyyətəri (tikinti, istismara buraxılma və istismar ərzində) maraqlı tərəflər üçün potensial narahatlığa və ya ətraf mühitə və sosial sahəyə təsirlərə səbəb olacağından, təsirə məruz qalmış tərəflərin potensial şikayətlərinə baxılması üçün mexanizmin yaradılması tələb olunur. Şikayətlərə baxılması mexanizminin məqsədi Layihənin ətraf mühit və sosial sahə üzrə göstəriciləri ilə əlaqədar maraqlı tərəfləri narahat edən məsələlərin və şikayətlərin qəbul edilməsinə və onların həllinə şərait yaradan sistemin yaradılmasıdır.

Şikayətlərə baxılması mexanizmi maraqlı tərəflər ilə qarşılıqlı əlaqələrin mühüm hissəsidir və tikinti və istismar fazaları boyu davam etməklə, E və S məsələlərinin açıqlanması prosesindən tutmuş Layihə müddətinin sonunadək davam edəcəkdir. Şikayətlərə baxılması mexanizmində mədəni cəhətdən məqsədəuyğun və xərc çəkilmədən asanlıqla əldə edilə bilən şəffaf və anlaşılan prosesdən istifadə ediləcəyinə görə bütün maraqlı/təsirə məruz qalmış tərəflər şikayət etmək imkanına maik olacaqdır.

Şikayətə baxılması mexanizminin elementlərinin icrasına görə məsuliyyətin müqavilə əsasında digər tərəfə ötürülə biləcəyinə baxmayaraq, mexanizmə görə ümumi cavabdehlik Layihə şirkətinin üzərində olacaqdır.

## 7.1 Şikayətlərə baxılması mexanizminin əsas prinsipləri

Layihə üçün şikayətlərə baxılması mexanizmində aşağıdakı prinsiplərə riayət olunacaqdır:

- Şikayətlərə baxılması mexanizminin məqsədi başlanğıcda aydınlaşdırılacaqdır;
- Prosesin miqyası Layihənin risklərinə və təsirlərinə uyğunlaşdırılacaqdır;
- Proses şəffaf olacaq və yazılı formada tərtib edilməklə, ictimaiyyətə açıqlanmaqla və müvafiq maraqlı tərəflərə izah olunmaqla, maraqlı tərəflərin hamısına hesabat veriləcəkdir;
- Məlumatın yerli dildə və icma üzvlərinin savadsız olduğu təqdirdə şifahi formada təqdim edilməsi yolu ilə şikayətə baxılması mexanizmin aydın və anlaqlı olması və asan əldə olunması təmin ediləcəkdir;
- Şikayətlər və narahatlıq doğuran məsələlər sürətlə həll ediləcəkdir;
- Şikayətə baxılması mexanizmində şikayət edilməsi ilə əlaqədar hər hansı xərclər və ya haqq nəzərdə tutulmayacaqdır; və
- Şikayət edən şəxsin təqib olunmaması nəzərdə tutulan aydın siyasətin tətbiq edilməsindən, məxfiliyin və şikayət ilə əlaqədar toplanmış şəxsi məlumatların qorunmasından ibarət ehtiyat tədbirləri görüləcək, həmçinin, şikayət ərizələrinin anonim şəkildə verilməsi imkanı təmin ediləcəkdir.

## 7.2 Şikayətlərə baxılması mexanizminin tətbiq sahəsi

Şikayətlərə baxılması mexanizminin tətbiq sahəsinə layihə fəaliyyətləri, ƏMSSTQ ilə əlaqədar təsirazaltma və kompensasiya tədbirlərinin icrası və Layihənin ətraf mühit və sosial sahə ilə əlaqədar

göstəriciləri ilə əlaqədar maraqlı tərəflərin problemlərinin və onları narahat edən məsələlərin qiymətləndirilməsi və nəzərdən keçirilməsi daxildir.

Hətta şikayətlər kiçik olduqda belə, təsirə məruz qalmış maraqlı tərəflərin bütün müvafiq iddiaları qəbul ediləcək və tədqiqatdan qabaq mühakimə yürüdülməyəcəkdir. Buraya gender əsaslı zorakılıq, cinsi istismar və zorakılıq, cinsi qısnama, layihənin işçilərinin və icma üzvlərinin arasında ixtilaf, və s. ilə əlaqədar şikayətlər daxildir.

Buna baxmayaraq, qəbul olunmuş normalara əsasən aşağıdakı iddialar Layihə səviyyəli mexanizmlərdən kənara yönəldiləcəkdir:

- Qanuniliyinin qiymətləndirilməsi əsasında layihə ilə əlaqəli olmadığı aydın olan şikayətlər;
- Hökumətin siyasəti və hökumət müəssisələri ilə əlaqədar məsələlər;
- ədliyyə sisteminə yönəldiləcək cinayət hərəkətləri və zorakılıq halları barədə şikayətlər; və
- Kommersiya mübahisələri: Kommersiya məsələləri müqavilə razılaşmalarında nəzərdə tutulacaq və məsələlər kommersiya məsələlərnin həli üçün nəzərdə tutulmuş müxtəlif mexanizmlərin əsasında və ya mülki məhkəmələrdə həll ediləcəkdir.

Yoxlama mərhələsində şikayətlərdən hər hansı birinin qəbul edilmədyi təqdirdə şikayət edən tərəf qəbul edilmiş qərar, o cümlədən, belə qərarın qəbul olunmasının səbəbləri barədə məlumatlandırılacaqdır.

HEVX-in işlənməsi ilə əlaqədar təqdim edilən şikayətlər qeydə alınacaq və Layihə şirkəti ilə sıx koordinasiya şəraitində baxılması və yekunlaşdırılması üçün Azərenerjiyə təqdim ediləcəkdir.

## 7.3 Şikayətlərə baxılması mexanizminin idarə olunmasının mərhələləri

### 7.3.1 Şikayətlərin idarə olunması prosedurlarının açıqlanması

Hazırkı Layihə üzrə şikayətlərə baxılması mexanizmi təsvir edilən və açıqlama prosesləri ilə əlaqəli olan vasitələrdən istifadə edilərək ictimaiyyətə açıqlanacaqdır. Bundan əlavə, Layihənin əsas yerlərində (yəni, İMM və sahənin/ofisin girişlərində) şikayət ərizələrinin təqdim edilməsi qaydaları və sonrakı mərhələlərə nəzarət prosesi barədə bildirişlər də nümayiş etdiriləcəkdir. Təqdim edilən məlumat ingilis və azərbaycan dillərində olacaq və aşağıdakıları əhatə edəcəkdir:

- Layihə səviyyəli mexanizmlərdən hansıları ilə nəticələr əldə etmək mümkündür və digər həll mexanizmləri ilə müqayisədə şirkətin şikayətlərə baxılması mexanizmindən istifadə zamanı şkayət edən tərəflər hansı mənfəətlər əldə edə bilər;
- Kim şikayət edə bilər (yəni, bütün maraqlı tərəflər şikayət edə bilər);
- İcma üzvləri şikayət ərizələrini harada, nə vaxt və necə verə bilər;
- Şikayətlərin qəbuluna və onlara cavabverilməsinə görə kim məsuliyyət daşıyır;

- Şikayət etmiş tərəflər cavabın təqdim olunma vaxtı da daxil olmaqla, şirkətdən nə cür cavab gözləyə bilər; və
- Hancı hüquq və müdafiə vasitələri təmin edilir.

### 7.3.2 Şikayət ərizəsinin verilməsi

Məlumatın artırılması və mexanizmin ictimaiyyətə açıqlanması zamanı şikayətlər:

- doldurulmuş forma (Əlavə A-dakı formaya istinad edin) İMM-dəki və layihə sahəsinin ofisinin girişlərindəki möhürlənmiş şikayətlər qutusuna çatdırılmaqla;
- poçt və ya elektron məktub vasitəsi ilə; və
- təhlükəsizlik xidmətinin əməkdaşları da daxil olmaqla, layihənin personalı tərəfindən birbaşa qəbul olunmaqla (Layihə sahəsinin giriş məntəqələrindəki və sahə ofis(lər)indəki təhlükəsizlik xidmətinin əməkdaşları şikayətlərin müvafiq qaydada qəbul edilməsi qaydalarından xəbərdar olmalı və bu qaydalar üzrə təlim keçməlidir) təqdim edilə bilər.

İnsanların prosesin özü və şikayətlərinə baxılma qrafiki barədə məlumatlandırılması üçün İMM-də və Layihə sahəsinin/ofisin əsas giriş məntəqələrində, şikayət qutularının yerləşdiyi yerlərdə məlumat yerləşdiriləcəkdir.

Savadsız olan və ya şikayətlərini şifahi formada təqdim etməyə üstünlük verən şəxslərin İMM-nin heyətinin vasitəsi ilə bu cür şikayət verməsinə və ya şikayətçiyə dair ətraflı məlumatlar qeydə alacaq və şikayətin əsas komponentlərinin nəzərə alındığının təsdiqlənməsi üçün şikayət ərizəsinin mətnini şikayətçiyə oxuyacaq müvafiq sahənin E və S/SƏTƏM üzrə meneceri ilə görüşməsinə imkan yaradılacaqdır. Müvafiq menecerin olmadığı hallarda şikayətləri mühafizə xidmətinin əməkdaşları qəbul edəcək və onların rəsmi şikayətlərə baxılma prosesininvasitəsi ilə qeydə alınmasını təmin edəcəkdir.

Anonim şikayət ərizəsinin (məsələn, şikayətçi barədə məlumatların göstərilmədiyi məktub və ya elektron müraciətin) alındığı və ya şikayət edən tərəf anonim qalmasını xahiş etdiyi hallarda belə, şikayət qəbul ediləcək və baxılacaqdır.

### 7.3.3 Şikayətlərin nəzarətdə saxlanılması

Yuxarıda qeyd edilən vasitələrdən hər hansı biri ilə təqdim edilmiş şikayət ərizəsini aldıqda, qaldırılmış məsələlərdən və ya problemlərdən hər hansı birinin açıq qalmasının qarşısını almaq məqsədi ilə bütün şikayətlərin müvafiq qaydada araşdırıldığına əmin olmaq üçün aşağıdakı mərhələlərə riayət olunacaqdır.

- Şikayətlər qeydiyyat jurnalında qeydə alınacaqdır (istinad üçün Əlavə B-dəki formaya baxın). Jurnalda aparılmış qeydlərə aşağıdakılar daxil olacaqdır:

- Şikayət barədə ətraflı məlumat;
- Şikayətlərin həlli üçün cavabdeh şəxslər/bölmə(lər);
- Prosesə nəzarətə dair məlumatlar (ərizənin qəbul edildiyi tarix, statusu, nəticənin tarixləri);
- Şikayətçiyə təqdim edilmiş cavab;

- Şikayətin təkrarlanmasının qarşısının alınması üçün görülən korrektiv və profilaktik tədbirlər; və
- Şikayətçinin təşkilat tərəfindən müvafiq tədbirlərin görüldüyünə əmin olması üçün şikayətçiyə şikayətin qeydiyyat nömrəsi və ona cavab veriləcəyi tarix göstərilmiş rəsmi təsdiqləyici bildiriş təqdim etməklə, şikayətin qəbul edildiyi mümkün qədər tez (qəbul edildiyi tarixdən sonra bir hfəftədən gec olmayaraq) təsdiqlənəcəkdir.

- Həssas, yəni, daha mürəkkəb tədqiqatın aparılması tələb edilən, bir neçə şəxsin maraqları və təsirə məruz qalmış çoxlu şəxs və ya cinsi istismarın və qısnamanın və ya gender əsaslı zorakılığın qurbanı olmuş şəxslər ilə əlaqədar şikayət təqdim edilən hallarda şikayətin qəbul edildiyi tarixdən sonra iki həftə ərzində şikayətçiyə məlumat verilərək, onun həlli üçün tələb olunan tədbirlər və ehtimal olunan müddət izah ediləcəkdir; və

- Layihə şirkəti ilk təsdiq məktubunda iddialardan hansının şiakəylərə baxılması mexanizminin tətbiq sahəsindən kənara çıxdığını və qeyd edilən potensial məsələlərin həlli üçün hansı alternativ mexanizmlərdən istifadə edilə biləcəyini izah edəcəkdir.

### 7.3.4 Şikayətlərin nəzərdən keçirilməsi və tədqiq edilməsi

Şikayətlərin təqdim edildiyi şəraitdən asılı olaraq, onların həllində müxtəlif şöbələrin iştirakına ehtiyac yarana bilər. Şikayətlərə baxılması üçün cavabdeh şəxs(lər) şikayətlərin qanuniliyini təsdiqləmək və təfərrüatların araşdırılmasını təmin etmək məqsədi daşıyan prosesi təşkil edəcəkdir.

Şikayətlər mürəkkəb olarsa və sürətli həlli mümkün olmazsa, məsələnin böyüməsinin qarşısını almaq üçün geniş tədqiqatın aparılması tələb edilə bilər. Tədqiqat və nəzərdən keçirmə prosesinin müvafiq qaydada MST podratçısına və ya İTX şirkətinə ötürülə biləcəyinə baxmayaraq, məsul və cavabdeh tərəf Layihə şirkəti olaraq qalacaqdır. Şikayətlərə baxılması mexanizmi “xərc çəkməmə” prinsipinə uyğun olmalıdır. Əgər tədqiqat qrupu daxildə təşkil edilərsə, maraqların toqquşması ehtimalı, ixtisaslar, gender tərkibi və büdcə kimi məsələlər nəzərə alınacaqdır. Müvafiq hallarda, şikayətçilər ilə görüşlər keçiriləcək və sahəyə səfərlər təşkil ediləcəkdir.

Təqdim edildikləri tarixdən sonra 2 həftə ərzində Layihə üzrə məsul tərəf bütün şikayətləri tədqiq edəcəkdir. Şikayətlərin tədqiq edilməsi üçün daha uzun müddətin tələb edildiyi hallarda şikayət edən tərəf belə ləngimə və cavabın gözləndiyi tarix barədə məlumatlandrılacaqdır.

Həssas, yəni, bir neçə şəxsin maraqları və ya cinsi istismarın və qısnamanın və ya gender əsaslı zorakılığın və ya icma bağlı ixtilafın qurbanı olmuş şəxslər ilə əlaqədar şikayətin təqdim edilən hallarda birgə tədqiqata kənar təşkilatların da cəlb edilməsi və ya yerli və ya milli qurumların iştirakına şərait yaradılması yalnız şikayətçilərin belə yanaşma üsuluna razılıq verdiyi təqdirdə şikayətin həllinə yardım edə bilər.

### 7.3.5 Şikayətin həll edilməsi variantları və şikayətə cavab

Qaldırılmış məsələnin növündən, baş vermə tezliyindən və şikayətlərin sayından asılı olaraq, şikayətlərin müxtəlif növlərinin həllində istifadə edilən yanaşma üsulu da fərqli olacaqdır. Xüsusi şikayət növlərindən hər biri üçün xüssi prosedurun təsvir edilməsindən daha çox, şikayətə baxılması mexanizminin çevikliyi təqdim edilən şikayətlərin müxtəlif növləri üçün müvafiq həll variantlarından

istifadəyə imkan verir. Məsələn, belə həll variantlarına zərərli fəaliyyətlərin dəyişdirilməsi və ya dayandırılması və ya onların vaxtının və ya həcminin məhdudlaşdırılması (məsələn, tikinti zamanı yaranan toz və ya giriş yolunda səs-küy), üzrxahlıq edilməsi və maraqlı tərəflər ilə qarşılıqlı əlaqə strategiyasına yenidən baxılması daxil ola bilər.

Şikayətçinin hansı formatı üstünlük verilən variant kimi seçməsindən asılı olaraq, şikayətin həlli barədə məlumat şikayətçiyə yazılı və ya şifahi formatda təqdim ediləcək, lakin bütün hallarda Şirkət tərəfindən yazılı uçot aparılacaqdır. Şikayətin/iddianın qəbul edilmədiyi və ya şirkətin tədbir görülməsini tələb etmədiyi hallarda ixtilafın böyüməsinin qarşısını almaq üçün şikayətin baxılma prosesinə qəbul olunub-olunmamasının nəticəsi barədə şikayətçiyə məlumat verilərkən, şirkətin nümayəndəsi diplomatik üsullardan istifadə edəcəkdir.

İddianın qəbul edildiyi hallarda təklif edilmiş həll variant müəyyən ediləcək və nəzərdə tutulmuş müddət ərzində şikayətçiyə məlumat veriləcəkdir. Əgər şikayətçi təklif edilən həll variantını qəbul etmirsə, şirkət vəziyyəti yenidən qiymətləndirəcək, nəticəni şikayətçiyə izah edərək onunla müzakirə edəcək və bütün alternativ variantların şikayətlərə baxılması mexanizminin çərçivəsində tədqiq edildiyinə əmin olacaqdır. Əgər şikayətçi təklif edilmiş həll variantı ilə yenə razı olmazsa, şikayətçinin şirkətin şikayətlərə baxılması mexanizmindən kənar mexanizmə (xarici mexanizmə) müraciət etməsinə icazə veriləcəkdir.

Bütün əlaqədar tərəflərin təklif edilən həll variantını qəbul etdiyi və ya onunla razılaşdığı hallarda iş yekunlaşdırılacaq və lazımi tədbirlərin görüldüyünə dair sübutlar toplanacaqdır. Belə sübutlara aşağıdakılar daxil olacaqdır:

- ümumi razılaşmaya nail olmaq və ya təsdiqə nail olmaq üçün şikayətçi ilə iclasın keçirilməsi və iddianın yekunlaşdırılması üçün iş sənədi ilə birlikdə qovluğa daxil edilməsi; və
- şikayətlərə və onların həll variantlarına dair hərtərəfli qeydlər qovluğunu hazırlamaq üçün fotoşəkillərin çəkilməsi və digər yazılı sübutların toplanması.

Şikayətçinin təklif edilən həll variantının nəticəsi ilə qane olmadığı təqdirdə əlavə müzakirəyə və təkrar qiymətləndirməyə dair tədbirlər yekunlaşdırılacaq və şikayətçinin həll variantına razı olmamasına dair bildirişdən sonra 2 həftə ərzində məlumat veriləcəkdir.

## 7.4 Tikinti və istismara buraxılma fazalarında şikayətlərə baxılması mexanizmi

Tikinti və istismara buraxılma fazalarında aşağıdakı tərəflərin şikayətlərinə baxılması üçün iki ayrıca mexanizmin icrası tələb olunacaqdır:

- **İşçilər** – tikinti və istismara buraxılma üçün personal, işçilər, layihə heyəti (o cümlədən, subpodratçıların işçi heyəti və müsafirlər); və
- **Üçüncü tərəflər** – Layihə ilə əlaqəsi olmayan bütün digər tərəflər.

Qəbul edən şikayətlərin hazırkı MTQƏP sənədinin müddəaları əsasında nəzərdən keçirildiyinə əmin olmaq üçün bu müddət ərzində şikayətlərə baxılması mexanizmini idarə etmək məsuliyyəti Layihə heyətinin üzvünə həvalə ediləcəkdir. Ondan həmçinin, müvafiq heyətə təlim keçmək tələb olunacaqdır

(aşağıda təsvir edilir). Şikayətləri idarə etmək məsuliyyəti həvalə edilmiş heyət üzvü üçün müvafiq resurslar ayrılacaqdır. Heyət üzvünə əlavə qrup və ya mövcud qrup üzvü dəstək verə bilər; buna baxmayaraq, işçi heyəti qarşılıqlı əlaqə prosesində təcrübəli olmalı və maraqlı tərəflər ilə qarşılıqlı əlaqə ilə əlaqədar kreditorun tələbləri ilə tanış olmalıdır.

### 7.4.1. İşçilərin şikayətlərinə baxılması (Daxildə)

İş ilə əlaqədar narahatlığa səbəb olan məsələləri qaldırmasına şərait yaratmaq üçün işçilərin şikayətlərinə baxılması mexanizmindən tikinti və istismara buraxılma fəaliyyətlərinə cəlb olunmuş bütün tikinti və istismara buraxılma personalının da istifadəsinə şərait yaradılacaqdır. Buraya Layihə şirkətinin, MST podratçısının, subpodratçıların bütün əməkdaşları, hər hansı digər əlaqədar podratçıları və layihə sahəsinə baş çəkən şəxslər daxildir. İşə götürüldükləri zaman təlimatlandırma aparılarkən tikinti və istismara buraxılma heyətinin bütün üzvləri şikayətə baxılma mexanizmi barədə məlumatlandırılacaqdır. Şikayətlərə baxılması mexanizmindan istifadə qaydaları barədə məlumat sahədəki əsas yerlərdə (məsələn, bildiriş lövhələrində) və işçilər üçün ayrılmış yaşayış bloklarında da yerləşdiriləcəkdir.

Tikinti və istismara buraxılma personalının şikayətləri xüsusi şikayət formasından (Əlavə A-dakı formaya istinad edin) istifadə edilməklə MST podratçısına yazılı formada təqdim ediləcəkdir. Şikayət ərizəsinin forması sahədəki əsas yerlərdə (məsələn, inzibati blokda, mətbəxtə və ofislərdə), həmçinin, işçi heyətinin hər hansı yaşayış sahəsində yerləşdiriləcəkdir. Şikayət forması Azərbaycan və İngilis dillərində və işçi heyətinin istifadə etdiyi digər mövcud dillərdə tərtib ediləcəkdir. Şikayət şikayət mexanizminin menecerinə və ya digər menecerə şifahi şəkildə bildirilə və ərizə forması şikayətçinin adından menecer tərəfindən doldurula bilər.

Şikayət ərzisəsi formalarına şikayətçinin əlaqə məlumatları daxil ediləcəkdir. Buna baxmayaraq, arzu olunarsa, şikayət anonim formada təqdim edilə bilər. Şikayət ərizəsi formaları bütün əsas sahələrdə belə formalar ilə birlikdə qoyulmuş möhürlü və qapalı "poçt qutusu"na atılacaqdır. Şikayət qutusu müntəzəm qrafik əsasında həftədə bir neçə dəfə yoxlanılacaqdır. Əgər şifahi şikayətə üstünlük verilərsə, şikayətçi şikayətin qaldırılması zamanı bu varianta üstünük verdyini göstərə bilər və məsul işçi heyəti şikayəti qəbul edərək, rəsmi proses əsasında onun qeydiyyatını aparacaqdır.

Şikayətlərə cavablar şəffaf olacaq və şikayətçilər təqib olunmayacaqdır. Şikayətlərin təqdim olumasından sonra onlara nəzarət tədbirləri şikayətə nəzarət formasında göstəriləcək və şikayətlərin reyestrində də sənədləşdiriləcəkdir. Nəzarət formasında şikayətin həlli üçün görüləcək bütün tədbirlər və aparılacaq hər hansı müzakirələr, həmçinin, vəziyyətin hər hansı gələcək monitorinqi və ya planlaşdırılan digər tədbirlər göstəriləcəkdir. Doldurulmuş və imzalanmış formalar sahədəki müvafiq şikayətlərə baxılması mexanizmi qovluğunda saxlanacaq, tikinti və istismara buraxılma fazaları ərzində vaxtaşırı aparılması tələb olunan ekoloji və sosial auditlər zamanı nəzərdən keçirilməsi üçün ətraf mühit və sosial məsələlər üzrə xarici müstəqil auditorlara təqdim ediləcəkdir.

### 7.4.2. Üçüncü tərəfin şikayətlərə baxılması mexanizmi

Üçüncü tərəfin şikayət ərizəsi formaları İMM və əsas sahə/ofislərdə Azərbaycan və İngilis dillərində nümayiş etdiriləcəkdir. Şikayət formalarının təqdim olunması üçün bu sahələrdə möhürlü və qapalı "şikayət qutu"ları yerləşdiriləcəkdir. Təyin edildikdən dərhal sonra mövcud menecerin əlaqə məlumatları da sahənin əsas giriş qapısındakı bildiriş lövhəsində nümayiş etdiriləcəkdir. Qeydiyyata alma, nəzərdən keçirmə, nəzarətdə saxlama və cavab vermə prosesi 7.3 bölməsində ətraflı təsvir edilən qaydada həyata keçiriləcəkdir.

Üçüncü tərəfin şikayətlərinin telefon, məktub və ya elektron poçt vasitəsi ilə qəbul edildiyi hallarda belə şikayətlər də təyin edilmiş nümayəndə tərəfindən rəsmi qaydada qeydiyyata alınmalı və müvafiq qaydada nəzarətdə saxlanılmalıdır. Şikayətçinin hansı formatı üstünlük verilən variant kimi seçməsindən asılı olaraq, şikayətin həlli barədə şikayətçiyə məlumat veriləcəkdir. Şikayətin/müraciətin qəbul edilmədiyi hallarda ixtilafın böyüməsinin qarşısını almaq üçün həll prosesinin nəticəsi barədə şikayətçiyə məlumat verilərkən, şirkətin nümayəndəsi diplomatik üsullardan istifadə edəcəkdir.

Şirkət nəticələri müzakirə edərək aydınlaşdırmaq və şikayətlərə baxılması mexanizmi çərçivəsində bütün alternativ variantların tədqiq edildiyinə əmin olmaq üçün vəziyyəti təkrar qiymətləndirməli, ixtilaf ərzində arbitraja və ya ixtilaf edən qrupların arasında vasitəçiliyə görə məsuliyyət daşıyan yerli icma üzvləri və şikayətçi ilə görüş təşkil etməlidir.

Şikayətin təqdim edilməsinə, tədqiqinə, əsas səbəbinin (əgər varsa) müəyyənləşdirilməsinə, korrektiv və profilaktik tədbirlərə və hər hansı nəzarət (o cümlədən, monitorinq) tədbirlərinə dair rəsmi qeydlər şikayətə nəzarət formasında qeydə alınacaq və nəzarət və ya korrektiv/yekun tədbirlərə dair bütün müvafiq sübutlar ilə birlikdə sənədləşdirilmiş məlumat kimi saxlanılacaqdır.

Şikayətin həlli üçün görülmüş bütün tədbirlər, aparılmış hər hansı əlavə müzakirələr, həmçinin, vəziyyətin gələcəkdə monitorinqi və ya digər məqsədlər üçün planlaşdırılmış tədbirlər nəzarət formasında göstəriləcəkdir. Doldurulmuş və imzalanmış formalar sahədəki müvafiq şikayətlərə baxılması mexanizmi qovluğunda saxlanacaq, nəzərdən keçirilməsi üçün ətraf mühit və sosial məsələlər üzrə müstəqil auditorlar kimi üçüncü tərəflərə təqdim ediləcəkdir.

### 7.4.1 Monitorinq

Şikayətlərin və müraciətlərin MST tərəfindən monitorinq prosesinin ACWA Power şirkəti tərəfindən nəzarətdə saxlanması məqsədi ilə ƏMSƏT görüşləri və sahədə audit proqramları əsasında həftədə və ayda bir dəfə bu barədə müzakirə aparılacaqdır. Bundan əlavə, şikayətlərin sənədləşdirilməsi və onlara cavab verilməsi prosesinin və metodunun münasibliyini yoxlaması üçün E və S üzrə məsləhətçi tərəfindən cəlb edilmiş müstəqil üçüncü tərəfin iştirakı ilə rüblük auditlər aparılacaqdır. Nəticələr barədə kreditorlara və Layihə şirkətinin idarə heyətinə məlumat veriləcəkdir.

## 7.5. İstismar fazası ərzində şikayətlərə baxılması mexanizmi

Layihənin istismar fazası ərzində şikayətlərə baxılması mexanizmi tikinti və istismara buraxılma fazalarına oxşar olacaqdır. Şikayətlərə baxılması mexanizmindən həm işçilər, həm də üçüncü tərəflər istifadə edə biləcəkdir.

Heyətin bir üzvü təyin ediləcək və işçinin və üçüncü tərəfin alınmış şikayətlərinin müvafiq qaydada idarə olunmasına (qeydə alınmasına, nəzərdən keçirilməsinə, tədqiq edilməsinə və cavab verilməsinə) görə məsuliyyət daşıyacaqdır. İMM, həmçinin, sahədəki əsas yerlərdə şikayətlərin təqdim edilməsi üçün möhürlü və qapalı "şikayət qutu"su ilə birlikdə Azərbaycan və İngilis dillərində şikayət formaları yerləşdiriləcəkdir. Şikayətlərin olub-olmadığını müəyyən etmək üçün şikayət qutusu müntzəm olaraq yoxlanılacaqdır. Şikayətlərin qeydiyyata alınması, nəzərdən keçirilməsi, nəzarətdə saxlanılması və onlara cavab verilməsi prosesi yuxarıda ətraflı təsvir edilən qaydada həyata keçiriləcəkdir. İstismar ərzində alınmış bütün şikayətlər (o cümlədən, bütün nəzarət sənədləri) sahədə aparılmış qeydlər ilə birlikdə minimum 5 il müddətinə saxlanılacaqdır.

Üçüncü tərəfin şikayətlərinin məktub və ya elektron müraciət formasında alındığı hallarda bunlar da təyin edilmiş nümayəndə tərəfindən rəsmi qaydada qeydə alınacaq və müvafiq qaydada nəzarətdə saxlanılacaqdır. Mövcud menecerin əlaqə məlumatları İMM-də və sahənin əsas girişlərindəki/ofislərindəki bildiriş lövhələrində nümayiş etdiriləcəkdir.

Şikayətlərə baxılması prosesində iştirak etməsi və həmkarlar ittifaqlarının nümayəndələri ilə koordinasiya şəraitində fəaliyyət göstərməsi üçün sahələrdə işçilərin seçdikləri nümayəndələr olacaqdır.

## 7.5 Qadınların, zəif və azətəminatlı qrupların şikayətlərinə baxılması proseduru

GƏZQ halları barədə məlumat verildiyinə əmin olmaq üçün aşağıdakı prosedurlar həyata keçiriləcəkdir:

- ACWA Power şirkətinin Ekoloji və Sosial İdarəetmə Sisteminin icrasına dair kitabça da daxil olmaqla, kreditorların və Azərbaycan hökumətinin tələblərinə uyğun olaraq, işçilərin arasında qeyri-məqbul davranışların, hesabat verilməsi üçün müddəaların, qaydaları pozan şəxslərə qarşı tətbiq ediləcək tədbirlərin və zərərçəkənlər üçün mövcud resursların və dəstək sistemlərinin ətraflı təsvir edildiyi Layihə üçün spesifik GƏZQ siyasəti işlənib hazırlanacaq və həyata keçiriləcəkdir;
- İşçilər hesabat verilməsi, tədqiqatların aparılması, cinsi zorakılıq və qısnama hallarına səbəb olmuş şəxslərin əmək müqavilələrinə xitam verilməsi və onlara qarşı nizam-intizam tədbirlərinin görülməsi barədə müddəaların nəzərdə tutulacağı əmək müqavilələrinin tərkib hissəsi kimi yerli dillərdə işçinin davranış qaydaları barədə məlumat ilə təmin ediləcəkdir;
- MST üzrə podratçı və İ və TX şirkəti yerli icma üzvlərinə və həmkarlara, ələlxüsus, qadınlara qarşı cinsi zorakılıq və qısnama halları və FƏZQ halları barədə məlumat verilməsi üçün şikayətlərə baxılması mexanizminin olması barədə müntəzəm olaraq məcburi təlimlər təşkil edəcək və işçi heyətinin bu sahədə məlumatını artıracaqdır;

- İşçilər cinsi qısnama və cinsi zorakılıq hallarına səbəb olan şəxsin cəzalandırılaraq cinayətə cəlb olunmasını nəzərdə tutan qanunların və normaların olması barədə məlumatlandırılacaqdır;
- SƏTƏM qrupunun üzvlərinin və İcma ilə əlaqələr üzrə məsul şəxslərin (İƏMŞ) arasında qadınların müvafiq səviyyədə təmsil olunması, qadın işçilərin əlaqə yaratması və müraciət etməsi üçün şəraitin yaradılması təmin ediləcəkdir.
- İşçilərin və layihənin həyata keçirildiyi icmanın üzvlərinin cinsi qısnama halları barədə anonim şəkildə müraciət edə bilməsi və şikayətçilərin məxfiliyinin qorunması üçün vasitələr işlənib hazırlanacaqdır;
- MST işçilərin arasında GƏZQ ilə əlaqədar məsələlərin nəzərdən keçirilməsi üçün GƏZQ üzrə məsələlər zamanı əlaqə saxlanılan qadın nümayəndə üçün təlim təşkil edəcəkdir;
- Layihə işçilərinə aid olan hallarda, MST üzrə podratçı və İ və TX şirkəti layihənin həyata keçirildiyi icmalarda cinsi zorakılıq və qısnama ilə əlaqədar hər hansı şikayətlərin tədqiqi zamanı yerli orqanlar ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərəcəkdir;
- MST üzrə podratçı məqsədyönlü (rəhbərlik və qərarların qəbul edilməsi kimi həyatı bacarıqlar üzrə) təlim təşkil edəcək və qadınlar kimi həssas işçilərin arasında məlumatı artıracaqdır; və
- Nəzarət vasitələrinin effektivliyini qiymətləndirmək məqsədi ilə CZ hallarının monitorinqi üçün xüsusi monitorinq sistemi işlənib hazırlanacaqdır.

### 7.5.1 Gender əsaslı zorakılıq və qısnama (GƏZQ) halları barədə məlumat verilməsi

GƏZQ barədə anonim qaydada məlumat verilməsi kanallar və vasitələr işlənib hazırlanacaqdır. Belə hadisələr barədə məlumat verilməsinə təşviq məqsədi ilə məlumatlandırma kanallarının təhlükəsizliyi və məxfiliyi təmin ediləcəkdir. Məlumatlandırma kanallarına aşağıdakılardan hər hansı biri daxil ediləcəkdir:

- İcma üzvləri: Kanallara şikayətlərin/rəylərin bildirilməsi üçün qutular, ödənişsiz telefon zəngi, icma üçün təşkilatın (məsələn, QHT-lərin, və s.) təyin edilməsi, xidmət istifadəçiləri qrupu və ya yerli qadınlar təşkilatı daxil ola bilər. Uşaqların və gənclərin məlumat verməyə təşviq edilməsi üçün məlumatlandırma kanallarında anonimliyin qorunması və uşaqlar üçün asan seçimlər nəzərdə tutulacaqdır.
- İşçilər: Kanallara şikayətlərin/rəylərin bildirilməsi üçün sahədə/ofisdə qutuların qoyulması, şirkətin veb-səhifəsi və ya electron poçt ünvanı vasitəsi ilə onlayn məlumat verilməsi daxil edilə bilər.

## 7.7. Şikayətə baxılması mexanizmi üzrə əlaqə məlumatları

Təklif edilmiş layihə ilə əlaqədar şikayətlərini təqdim edə və iradlarını bildirə bilməsi üçün maraqlı tərəflərə aşağıdakı əlaqə məlumatları təqdim ediləcəkdir.

### Cədvəl 7-1 Maraqlı tərəflər ilə qarşılıqlı əlaqə - Şikayətlərə baxılması mexanizmi üzrə əlaqə məlumatları

| ŞİRKƏT | ƏLAQƏ MƏLUMATLARI |
|---|---|
| Layihə şirkəti | ACWA POWER AZERBAYCAN RENEWABLE ENERGY |
| Şikayətlər üzrə menecer / məsul şəxs | Cavid Əlifli<br>Telefon: M + 994 50 241 80 30<br>E-poçt: JAlifli@acwapower.com |
| İMM | Vüsal Səfərov<br>Telefon: +99455 260 08 09<br>E-poçt: vusal.safarovv@gmail.com |

Tətbiq edilə bilən hallarda, tikinti və istismar fazaarının başlanmasından qabaq Layihə şirkətinin, MST podratçısının və İTX şirkətinin əlaqə məlumatları yoxlanıb təsdiqlənəcəkdir.

## 7.8. Prosesin gedişi və qrafiki

### Cədvəl 7-2 Şikayət prosesinin gedişi və qrafiki

| MƏRHƏLƏ | QRAFİK |
|---|---|
| Şikayətin təqdim olunması/qəbul edilməsi | - |
| Şikayətin qeydə alınması və təsdiqlənməsi | Şikayətin təqdim olunmasından sonra 1 həftə ərzində |
| Şikayətin tədqiq edilməsi | Şikayətin təqdim olunmasından sonra 2-3 həftə ərzində* |
| Təklif edilən həll variantının şikayətçiyə təqdim olunması | Şikayətin təqdim olunmasından sonra 30 gün ərzində |
| **Tətbiq oluna bilərsə, şikayətçinin həll variant ilə əlaqədar narazılığını bildirməsindən sonra** | |
| Şikayətin yenidən qiymətləndirilməsi/yeni həll variantının təklif olunması/yekun qərarın şikayətçiyə bildirilməsi | Şikayətçinin narazılığına dair bildirişin təqdim edilməsindən sonra 2 həftə ərzində |
| Şikayətin iki tərəfin arasında həll olunmadığı təqdirdə vasitəçi, yəni, Layihə sahəsində mədəniyyəti və qaydaları başa düşən yerli rəhbər cəlb ediləcəkdir. | Şikayətçinin narazılığına dair bildirişin təqdim edilməsindən sonra 2 həftə ərzində |
| Layihə səviyyəsində həll olunmayan şikayətlər - ACWA Power şirkətinin, bələdiyyənin və hər hansı digər müvafiq orqanların böyük rəhbərliyinin iştirak etdiyi şikayətlərə baxılması komitəsi (tələb olunarsa). | Şikayətçinin narazılığını bildirməsindən sonra 30 gün ərzində. |

***Qeyd**: Şikayətlər mürəkkəb olduqda və ya digər amillər tədqiqat müddətindən artıq davam etdikdə, şikayətçiyə belə ləngimə barədə məlumat veriləcək və gözlənilən cavab üçün yenilənmiş qrafik təqdim olunacaqdır.*

## 7.9. Təlim

Layihə rəhbərliyi şikayətlərə baxılması mexanizminin təsdiqlənməsinə və işçilərin və müvafiq maraqlı tərəflərin ondan istifadə imkanlarından xəbərdar olmasının təmin edilməsinə görə məsuliyyət daşıyacaqdır.

Həmçinin, şikayətlərə baxılması mexanizmini idarə etmək üçün Layihə rəhbərliyinin personal təyin etməsi də vacibdir. Bu personal təsvir edilmiş şikayətlərə baxılması mexanizmindən tam xəbərdar olmalı və effektiv icra üçün lazımi vəzifələri yerinə yetirə biləcəklərinə əmin olmaq üçün onların hazırkı sənəddən istifadəsinə şərait yaradılmalıdır.

Şikayətlər İMM-də və əsas layihə sahəsində/ofislərində təqdim edilə/qəbul edilə bildiyinə görə təhlükəsizlik xidmətinin əməkdaşlarının bu proses ilə əlaqədar təlim aldığına, hazırkı sənəddən və hər hansı mövcud formalardan, layihə üzrə cavabdeh tərəflərin əlaqə məlumatlarından, və s. istifadə edə bildiyinə əmin olmaq lazım gələcəkdir.

Bundan əlavə, Layihə barədə təlimatlandırılarkən, bütün işçi heyəti gender əsaslı zorakılıq və qısnama halları barədə məlumatın təqdim olunması, proseslər və onlardan istifadə imkanları kimi əsas elementlər də daxil olmaqla, şikayətlərə baxılması mexanizmindən istifadə imkanları barədə məlumatlandırılacaqdır.

# 8. İCRA PLANI

Hazırkı Maraqlı Tərəflər ilə Qarşılıqlı Əlaqə Planının effektiv şəkildə tətbiq olunması üçün idarəetmə strukturunun müəyyənləşdirilməsi və onu yerinə yetirən və idarə edən münasib personalın təyin olunması əhəmiyyətlidir.

## 8.4. Vəzifə və məsuliyyətlər (Layihə şirkəti)

***Qeyd:*** *Layihənin işçi heyətinin və sahədəki məsuliyyətlərin yekunlaşdırılmasından sonra aşağıdakı vəzifələrə yenidən baxılması lazım gələcəkdir. Layihə iştirakçıları tərəfindən təsdiqləndikdən sonra SƏTTƏM üzrə menecerin, Ətraf mühit və sosial məsələlər üzrə menecerin və İcma ilə əlaqələr üzrə məsul şəxsin məsuliyyətləri aşağıda təsvir ediləcəkdir.*

### 8.4.1. SƏTƏM üzrə menecer

| | |
|---|---|
| **ADI** | Təsdiqlənməlidir |
| **ƏLAQƏ MƏLUMATLARI** | Təsdiqlənməlidir |

SƏTTƏM üzrə menecer aşağıdakılara görə məsuliyyət daşıyacaqdır:

- Strateji məqsədlərin işlənməsi və icrası zamanı maraqlı tərəflərin partnyor kimi tanınmasının təmin edilməsi;
- Maraqlı tərəflər ilə effektiv məsləhətləşmənin aparılmasında və onlar ilə qarşılıqlı əlaqələrin yaradılmasında maraqlı tərəfin idarəetmə bölməsinə yardım edilməsi;
- Riskin effektiv şəkildə idarə edilməsi üçün maraqlı tərəflər ilə münasibətlər dair məsələlər və/və ya risklər yaranan kimi onlar barədə böyük rəhbərliyə məlumat verilməsi;
- MTQƏP-nin icrasına və idarə olunmasına dəstək verilməsi;
- SƏTƏM məsələləri və ya qəza hallarına qarşı cavab tədbirlərinin planlaşdırılması ilə birbaşa əlaqəsi olan maraqlı tərəflər ilə qarşılıqlı əlaqələrə dair fəaliyyətlərdə iştirak edilməsi; və
- Fövqəladə hallara qarşı cavab tədbirlərinin planlaşdırılması, məşqlər və müvafiq qaydada, qəza halları ilə əlaqədar olaraq hər hansı xarici maraqlı tərəflər ilə qarşılıqlı əlaqənin yaradılması.

### 8.4.2. Ətraf mühit və sosial məsələlər üzrə menecer

| | |
|---|---|
| **ADI** | Təsdiqlənməlidir |
| **ƏLAQƏ MƏLUMATLARI** | Təsdiqlənməlidir |

MST podratçısı tikinti və istismara buraxılma fazaları ərzində Ətraf mühit və sosial məsələlər üzrə menecer, istismar fazası ərzində İTX şirkəti cəlb edəcək/təyin edəcəkdir. Layihə şirkətinin SƏTƏM üzrə meneceri Ətraf mühit və sosial məsələlər üzrə menecerə nəzarət edəcəkdir. Ətraf mühit və sosial məsələlər üzrə menecer aşağıdakılara görə məsuliyyət daşıyacaqdır:

- Layihənin kreditorların tələblərinə uyğun olmasını təmin edərək, MTQƏP-in bütün cəhətlərinin yerinə yetirilməsi;
- Maraqlı tərəflərə aid məsələlərin müəyyənləşdirilməsi və həmin məsələlərin nəzərdən keçirilməsi üçün müvafiq tədbirlərin görülməsi;
- MTQƏP-nin və mövcud qarşılıqlı əlaqə metodlarının İcma ilə əlaqə üzrə məsul şəxs tərəfindən ictimaiyyətə açıqlanmasının təmin edilməsi;
- Layihənin personalının MTQƏP və şkayətlərə baxılması mexanizmi (o cümlədən, təhlükəsizlik personalı) barədə ətraflı məlumatlandırılmasının və tələb olunan resursların (məsələn, nəqliyyat vasitələrinin, şirkətin telefonlarının, ofis materiallarının) təchiz olunmasının təmin edilməsi;
- Maraqlı tərəflər ilə görüşün və informasiyanın açıqlanmasının müvafiq qaydada idarə olunmasının təmin edilməsi;
- Bütün şikayətlərin nəzərdən keçirilməsinə və həll edilməsinə rəhbərlik edilməsi; və
- Vaxtaşırı müstəqil monitorinqin aparılmasına və audit hesabatlarının və tələb olunarsa, bütöv hesabatların qeyri-texniki xülasələrinin açıqlanmasına rəhbərlik edilməsi.

### 8.4.3. İcma ilə əlaqələr üzrə məsul şəxs (Şikayətlər üzrə menecer)

| | |
|---|---|
| **ADI** | Təsdiqlənməlidir |
| **ƏLAQƏ MƏLUMATLARI** | Təsdiqlənməlidir |

Təsirə məruz qalmış maraqlı tərəflər ilə müntəzəm olaraq əlaqə saxlamaq üçün İcma ilə əlaqə üzrə məsul şəxs (İƏMŞ) cəlb edəcək/təyin edəcəkdir (bu vəzifə təyin olunmuş E və S məsələlər üzrə menecer ilə müştərək yerinə yetirilə bilər). İƏMŞ layihə rayonunu tanımalı və yerli dildə ünsiyyət qurmağı bacarmalıdır. İƏMŞ-in məsuliyyətlərinə aşağıdakılar daxil olacaqdır:

- İctimaiyyətin fikirlərinin, rəylərinin və şikayətlərinin müəyyənləşdirilməsi, ümumiləşdirilməsi və qeydə alınması və ya tədbirlərin görülməsi üçün müvafiq personalın diqqətinə çatdırılması;
- Şikayət ərizələrinin növlərinin, şikayətçi tərəflərin və şikayət ərizələrindən hər birinin statusunun nəzarətdə saxlanılması üçün şikayətlərə nəzarət sisteminin yaradılması;
- İnformasiyanın müvafiq maraqlı tərəflərə açıqlanması və təqdim olunması və materialların müvafiq dilə tərcümə edilməsi;
- Şikayətçilərin məlumat üçün müraciəti kimi kiçik, birbaşa bildirilən məsələlərə baxılması;
- Xüsusi şikayətlərin mətni və ya onlara cavab ilə əlaqədar Layihə şirkətinin (və ya digər Layihə iştirakçılarının) məlumatdırılmasına ehtiyac olub-olmaması kimi xüsusi şikayətlərə baxılması ilə əlaqədar rəhbərliyin digər üzvlərinin rəyinin alınması;
- Hazırkı prosedurda ətraflı təsvir edildiyi kimi xaricdən alınmış bütün şikayətlərin müəyyənləşdirilmiş qrafik çərçivəsində müvafiq qaydada qeydə alınmasının, nəzərdən keçirilməsinin və idarə olunmasının təmin edilməsi; və
- Maraqlı tərəflər ilə qarşılıqlı əlaqə və şikayətlər ilə əlaqədar öhdəliklərə uyğun olaraq, dəyişikliklər əsasında yenilənmənin aparılması.

Qeyd: MST şikayətlər barədə LŞ-ə məlumat verməsi üçün layihə üzrə İƏMŞ də işə götürəcəkdir.

## 8.5. Monitorinq və hesabat vermə

MTQƏP-nin gedişini və ya müvəffəqiyyətlə yerinə yetirilib-yetirilmədiyini qiymətləndirmək üçün aşağıdakı Əsas İcra Göstəriciləri (ƏİG) nəzərdən keçirilməlidir. ƏİG-lər ayda bir dəfə qiymətləndirilməlidir.

- Yerli icmanın sağlamlığı, təhlükəsizliyi və fiziki təhlükəsizliyi (xəsarətlər, zərər, xəstəlik, və s.) ilə əlaqədar şikayətlərin sayı (növünə görə);
- İcmz üzvünün (üzvlərinin) xəsarət almasına/zədələnməsinə səbəb olan hadisələrin sayı;
- Sahədən kənarda baş verən, icma üzvünün (üzvlərinin) xəsarət almasına və ya tələfatına/əmlakının itkisinə səbəb ola bilən hadisələrin sayı;
- İşçilərin ayda bir dəfə təmin edildiyi layihə üzrə təlimlərin/təlimatlandırmaların, iştirakçıların və yeni işçilərin sayı;
- Qadın işçilərin sayı;
- Layihənin təsir sahəsində yaşayan qadınlar və yetkin qızlar üçün təmin olunan reproduktiv sağlamlıq, CYYX-lər, İÇV/QİÇS barədə məlumatlandırıcı və maarifləndirici təlimlərin sayı;
- Bütün layihə işçilərinin təmin edildiyi CİZ/CQ riskləri ilə əlaqədar məlumatlandırıcı təlimlərin sayı;
- İşçi heyətinin yerli icma üzvlərinə (o cümlədən, qadınlara) və onların xüsusilə, qadın həmkarlarına qarşı gender əsaslı zorakılıq və qısnama halları ilə əlaqədar müntəzəm olaraq təmin edildiyi icbari təlimlərin və məlumatlandırıcı məşğələlərin sayı;
- CİZ, CQ və GƏZ, və s. ilə əlaqədar qəbul edilmiş və həll olunmuş şikayətlərin sayı;

Qarşılıqlı əlaqələrə dair bütün fəaliyyətlər nəzarətdə saxlanılacaq və Layihə şirkətinə məlumat veriləcəkdir.

# 9. İCMAL

Burada qeyd edildiyi kimi MTQƏP istinad sənədi qismində layihənin həyata keçirildiyi müddət ərzində daim yenilənərək ESİS-də istifadə ediləcək sənəddir. Buna görə, layihə şəraitində dəyişikliklər, yeni tələblər, təsirə məruz qalmış yeni maraqlı tərəflər, üsulların nəzərdən keçirilməsi, qarşılıqlı əlaqə metodlarında dəyişiklik, müvafiq personalın dəyişdirilməsi, şikayətlərə baxılması mexanizmində dəyişiklik, və s. kimi hər hansı müvafiq dəyişikliklərin aparılması üçün lazım gəldikcə, MTQƏP sənədinin yenilənməsinə ehtiyac vardır. Auditin nəticələri və ya digər tapıntılar ilə əlaqədar görülən korrektiv tədbirlərin tərkib hissəsi kimi MTQƏP-in vəşikayətlərə baxılması mexanizminin də yenilənməsinə ehtiyac yarana bilər.

Davamlı təkmilləşməyə nail olmaq məqsədi ilə MTQƏP ən azı ildə bir dəfə nəzərdən keçiriləcəkdir.

# ƏLAVƏ A – ŞİKAYƏT FORMASININ NÜMUNƏSİ

| **ŞİKAYƏT FORMASI**<br>*Yalnız şikayət(lər) üçün istifadə edilməlidir. İradların bildirilməsi, təkliflər edilməsi və/və ya sorğu və ya hər hansı digər məsələlər ilə əlaqədar istifadə edilməməlidir* | |
|---|---|
| TƏLİMATLAR | Hazırkı şikayət formasını aydın əl yazısı ilə doldurmağınızı və aşağıdakı vasitələrdən biri ilə təqdim etməyinizi xahiş edirik:<br>- Birbaşa menecerə verilməsi<br>- Elektron poçt ilə göndərilməsi: Təsdiqlənməyib<br>- İMM-dəki və ya layihə sahəsinin girişlərindəki şikayət qutusuna atılması |
| Bütöv adınız | Adınız: |
| | Soyadınız: |
| | ☐ Mən şikayətimi anonim vermək istəyirəm *(İstəsəniz anonim qala bilərsiniz, lakin sizi narahat edən məsələyə cavab verə bilməyimiz üçün sizinlə əlaqə saxlaya bilməyəcəyik)* |
| Əlaqə saxlamaq üçün məlumat<br>Sizinlə əlaqə saxlamağımız üçün vasitəni nişanlayın (poçt, telefon, e-poçt). | ☐ Poçtla: *Poçt ünvanını göstərməyiniz xahiş olunur:* |
| | ☐ Telefonla: |
| | ☐ E-poçt ilə: |
| Əlaqə saxlamaq üçün üstünlük verilən dil | ☐ Azərbaycan |
| | ☐ İngilis |
| | |
| Hadisənin/şikayətin təsviri | *Nə baş verib? Harada baş verib? Hadisə kimin başına gəlib? Proebemin nəticəsi nədir?* |
| Hadisənin/şikayətin tarixi | ☐ Bir dəfə baş vermiş hadisə/şikayət (tarix…) |
| | ☐ Bir dəfədən artıq baş verib (neçə dəfə?) |
| | ☐ Davam etməkdədir (hazırda problemlə üzləşməkdəyəm) |
| | |
| Proeblemin həlli üçün hansı tədbirlərin görülməsini istərdiniz? | |
| İmza: | |
| Tarix: | |

# **ƏLAVƏ B** – ŞİKAYƏTLƏRİN QEDYİYYAT FORMASI

| BƏND | TARİX | ŞİKAYƏTÇİNİN ADI | ƏLAQƏ MƏLUMATI | ÜSTÜNLÜK VERİLƏN DİL | ANONİM QALMAQ İSTƏYİR Mİ? | PROEBLEMİN TƏSVİRİ | MƏSUL ŞƏXS | GÖRÜLMƏLİ TƏDBİRLƏR | GÖZLƏNİLƏN TARİX | TƏDBİRLƏRİN NƏTİCƏLƏRİ | SON TARİX | YEKUNLAŞDIRILDIĞINA DAİR DƏLİL |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

# **ƏLAVƏ C** – QHT-LƏRİN VƏ İCTİMAİ BİRLİKLƏRİN SİYAHISI

- QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvləri
- Azərbaycan Ornitoloji Cəmiyyəti
- Ekoloji Maarifçilik və Monitorinq İctimai Birliyi
- Qadın və Uşaqların İnnovativ Maarifləndirilməsinə Dəstək İctimai Birliyi
- İctimai və Siyasi Tədqiqatlar İctimai Birliyi
- Turizmin İnkişafına Dəstək İctimai Birliyi
- Gənclər Turizmi